**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

# “AZƏRBAYCANIN KƏND TƏSƏRRÜFATI MƏHSULLARI ÜÇÜN POTENSİAL İXRAC SATIŞ ZONASININ MÜƏYYƏN EDİLMƏSİ”

**mövzusunda**

**MAGİSTR DİSSERTASİYASI**

**Salahova Səbinə İlham**

**BAKI – 2021**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

**BMDM-in direktoru**

**i.ü.f.d., dos. Əhmədov Fariz Saleh oğlu**

**__________________________ imza**

**"____" ___________________ 20__-ci il**

# "AZƏRBAYCANIN KƏND TƏSƏRRÜFATI MƏHSULLARI ÜÇÜN POTENSİAL İXRAC SATIŞ ZONASININ MÜƏYYƏN EDİLMƏSİ"

**mövzusunda**

## MAGİSTR DİSSERTASİYASI

**İxtisasın şifri və adı:** 060408 - Marketinq

**İxtisaslaşma:** Logistika

**Qrup:** 314

**Magistrant:**
**Salahova Səbinə İlham qızı**
**_________________ imza**

**Elmi rəhbər:**
**i.ü.f.d., b/m. Muradova Hicran Rafiq qızı**
**____________________imza**

**Proqram rəhbəri:**
**i.ü.f.d., dos. Şamxalova Samirə Oqtay qızı**
**__________________im**

**Kafedra müdiri:**
**i.e.d., prof. Kəlbiyev Yaşar Atakişi oğlu**
**___________________imza**

**BAKI – 2021**

**Elm andı**

Mən, Salahova Səbinə İlham qızı and içirəm ki, "Azərbaycanın kənd təsərrüfatı məhsulları üçün potensial ixracsatış zonasının müəyyən edilməsi" mövzusunda magistr dissertasiyasını elmi əxlaq normalarına və istinad qaydalarına tam riayət etməklə və istifadə etdiyim bütün mənbələri ədəbiyyat siyahısında əks etdirməklə yazmışam.

# “AZƏRBAYCANIN KƏND TƏSƏRRÜFATI MƏHSULLARI ÜÇÜN POTENSİAL İXRAC SATIŞ ZONASININ MÜƏYYƏN EDİLMƏSİ”

## XÜLASƏ

**Tədqiqatın aktuallığı: 2010-cu ildən başlayaraq dünya bazarında baş verən maliyyə böhranları, neftin qiymətindəki kəskin dalğalanmalar Azərbaycan iqtisadiyyatına da təsirini göstərdi. İdxalın əvəzlənməsi, ixracın stimullaşdırılması, daxili tələbatın ödənilməsi, ixracda neft və neft məhsullarının payının azaldılması üçün kənd təsərrüfatı məhsullarının ixracyönlü istehsalına ehtiyac var. Belə olan halda, potensial ixrac-satış bazarlarının öyrənilməsi, yeni xarici bazarlara çıxış imkanlarının müəyyən edilməsi daha da aktuallaşır.**

**Tədqiqatın məqsədi: Tədqiqatın aparılmasında məqsəd kənd təsərrüfatı istehsalçılarının ixrac problemlərini, ənənəvi bazarlardan kənar, yeni satış bazarlarını araşdırmaq, aqrar sənaye məhsullarının ixrac imkanlarını qiymətləndirməkdir.**

**İstifadə olunmuş tədqiqat metodları: Tədqiqatın aparılması zamanı təhlil və sintez, qruplaşdırma, statistik analiz, riyazi və müqayisəli təhlil metodlarından istifadə edilmişdir.**

**Tədqiqatın informasiya bazası: Elmi işin yazılmasında informasiya bazası kimi Dövlət Statistika Komitəsinin, İqtisadiyyat Nazirliyinin, Dövlət Gömrük Komitəsinin, Kənd Təsərrüfatı Nazirliyinin rəsmi saytlarından əldə edilmiş məlumatlardan, habelə müvafiq fərmanlardan, tədqiqatlardan, elmi araşdırmalardan, məqalələrdən və sair istifadə edilmişdir.**

**Tədqiqatın məhdudiyyətləri: Kənd təsərrüfatı məhsullarının böyük bir hissəsinin ailə təsərrüfatları tərəfindən istehsal edilməsi, korporativ şirkətlərin payının az olması lazımi məlumatların əldə olunmasını çətinləşdirir.**

**Tədqiqatın elmi yeniliyi və praktiki nəticələri: Tədqiqat kənd təsərrüfatı məhsulları ixracında mövcud problemləri görməyə imkan verəcəkdir.**

**Nəticələrin istifadə oluna biləcəyi sahələr: Kənd təsərrüfatı istehsalçılarının, ixracatçılarının maarifləndirilməsində, mövzu ilə bağlı araşdırmalarda tədris materialı kimi istifadə edilə bilər.**

***Açar sözlər: kənd təsərrüfatı, logistika, potensial ixrac bazarları, aqrar məhsullar***

# IDENTIFICATION OF A POTENTIAL EXPORT-SALES ZONE FOR AGRICULTURAL PRODUCTS IN AZERBAIJAN


## SUMMARY

**The actuality of the subject: The financial crises in the world market since 2010 and the sharp fluctuations in oil prices have also affected the Azerbaijani economy. There is a need for export-oriented production of agricultural products to replace imports, stimulate exports, meet domestic demand, reduce the share of oil and oil products in exports. In this case, the study of potential export and sales markets, the identification of access to new foreign markets becomes even more relevant.**

**Purpose and tasks of the research: Purpose of the study is to study the export problems of agricultural producers, new markets beyond traditional markets, to assess export potential of agricultural products.**

**Used research methods: Analysis and synthesis, grouping, statistical analysis, mathematical, comparative analysis methods were used during the research.**

**The information base of the research: Information obtained from the official websites of State Statistics Committee, the Ministry of Economy, the State Customs Committee, Ministry of Agriculture, as well as relevant decrees, research, scientific articles, articles and others were used as the information base.**

**Restrictions of research: The fact that a large proportion of agricultural products are produced by households, and small share of corporate companies make it difficult to obtain necessary information.**

**The novelty and practical results of investigation: Research will allow to see existing problems in the export of agricultural products.**

**Scientific-practical significance of results: can be used as a teaching material in the education of agricultural producers, exporters, research on the topic.**



***Keywords: agriculture, logistics, potential export markets, agricultural products***

## İXTİSARLAR VƏ İŞARƏLƏR

| | |
|---|---|
| **ASC** | Açıq Səhmdar Cəmiyyəti |
| **B2B** | Business to business |
| **GABA** | Gəncə Aqrobiznes Assosiasiyası |
| **GZİT** | Güclü, Zəif, İmkanlar, Təhlükələr |
| **QSC** | Qapalı Səhmdar Cəmiyyəti |
| **MDB** | Müstəqil Dövlətlər Birliyi |
| **MMC** | Məhdud Məsuliyyətli Cəmiyyət |

## MÜNDƏRİCAT

**GİRİŞ** ........ 8

**I FƏSİL. AZƏRBAYCANDA KƏND TƏSƏRRÜFATI MƏHSULLARI ÜZRƏ POTENSİAL İXRAC-SATIŞ ZONASININ MÜƏYYƏN EDİLMƏSİNİN NƏZƏRİ-METODOLOJİ ƏSASLARI** ........ 12

1.1. Azərbaycan praktikasında potensial satış zonası və onun logistik praktikada tətbiqinin zəruriliyi ........ 12

1.2. Kənd təsərrüfatı məhsullarının ixrac ediləcəyi xarici bazarların müəyyən edilməsi metodları və xarici bazarın seçilməsinə təsir edən iqtisadi faktorlar ........ 22

**II FƏSİL. AZƏRBAYCANIN İXRAC POTENSİALLI KƏND TƏSƏRRÜFATI MƏHSULLARININ VƏ ONLARIN DAŞINMASINA TƏSİR GÖSTƏRƏN İQTİSADİ AMİLLƏRİN TƏHLİLİ** ........ 27

2.1. Azərbaycan kənd təsərrüfatında ixrac əhəmiyyətli məhsulların müəyyən edilməsinin səmərəliliyi ........ 27

2.2. Azərbaycanın ixrac etdiyi kənd təsərrüfatı məhsullarının daşınması üçün uyğun nəqliyyat növünün və daşınma metodunun seçilməsi ........ 34

2.3. İxrac edilən kənd təsərrüfatı məhsullarının uzun müddətli qalması üçün görülən tədbirlərin qiymətləndirilməsi amilləri ........ 43

**III FƏSİL. AZƏRBAYCANDA İXRAC OLUNAN KƏND TƏSƏRRÜFATI MƏHSULLARININ POTENSİAL SATIŞ ZONASININ İNKİŞAF PERSPEKTİVLƏRİ** ........ 52

3.1. Azərbaycanda kənd təsərrüfatı məhsullarının ixracında potensial satış zonasının yaradılmasının inkişaf perspektivləri ........ 52

3.2. İxrac olunan kənd təsərrüfatı məhsullarının satış zonalarının yaradılmasına dövlət dəstəyi ........ 59

**NƏTİCƏ VƏ TƏKLİFLƏR** ........ 68

**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI** ........ 71

**ƏLAVƏLƏR** ........ 74

Cədvəllərin siyahısı ........ 75

Şəkillərin siyahısı ........ 75

Qrafiklərin siyahısı ........ 75

# GİRİŞ

**Mövzunun aktuallığı:** Kənd təsərrüfatı sektoru sosial-iqtisadi və siyasi problemlərin həllində, əsasən də regionlarda yaşayan əhalinin məşğulluğunda olduqca mühüm bir rola malikdir. Son zamanlarda dünya enerji bazarında baş verən proseslərin ölkə iqtisadiyyatına mənfi təsiri nəticəsində iqtisadiyyatın digər sektorlarında işini itirən əhalinin bir qisminin yenidən bu sektora üz tutmaları deyilənlərin əsaslı nümunəsidir. Hal-hazırda ölkəmizdə kənd təsərrüfatı sektorunun əməktutumlu sahələrinin inkişaf etdirilməsi nəticəsində qısa müddətdə bu sektorda daha çox insana iş imkanı yaranmış, sahənin inkişafına maraq artmışdır.

Son zamanlar Azərbaycanda qeyri-neft sektoruna göstərilən yüksək marağın nəticəsi olaraq iqtisadiyyatın aparıcı sahələrindən biri olan aqrar sahə keyfiyyətcə yeni bir inkişaf mərhələsinə qədəm qoymuşdur. Bu sahənin inkişafı üçün əsaslı addımların atılması ölkə iqtisadiyyatının neft sektorundan asılılığının tədricən azalmasına, sosial dayanıqlılığın, ərzaq təhlükəsizliyinin etibarlılığının artırılmasına, iqtisadiyyatın şaxələndirilməsi üçün yüksək ixrac potensialına sahib olan qeyri-neft sektorunun inkişaf etdirilməsi baxımından mühüm rola malikdir.

Azərbaycan Respublikasının Prezidenti İ.Əliyev 06 dekabr 2016-cı ildə "Azərbaycanda kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"ni öz fərmanı ilə təsdiq etmişdir ki, bu da öz növbəsində sahəyə olan marağın artmasına, islahatların həyata keçirilməsinə, sahənin inkişafı üçün ardıcıl addımlar atılmasına gətirib çıxarmışdır.

Bunun nəticəsidir ki, ölkəmizdə həyata keçirilən aqrar islahatlar nəticəsində kənd təsərrüfatının dinamik inkişafı üçün zəmin yaranmış, yeni iqtisadi və mülkiyyət münasibətləri formalaşmış, aqrar sektorda əsaslı dəyişikliklər baş vermiş, normativ-hüquqi baza təkmilləşmişdir. Kənd təsərrüfatının inkişafına dövlət dəstəyinin gücləndirilməsi, istehsal olunan məhsulun artmasına, idxal asılılığımızın azalmasına, eyni zamanda ixrac potensialımızın böyüməsinə yol açmışdır.

**Problemin qoyuluşu və öyrənilmə səviyyəsi:** Azərbaycanda istehsal olunan kənd təsərrüfatı məhsullarının ixrac imkanları bu barədə öz əsərlərində qeyd edən yerli tədqiqatçıların, alimlərin işləri əsasında nəzərdən keçirilir. Bu sahədə araşdırma aparan yerli mütəxəssislər arasında – Z.Ə.Səmədzadə, B.X.Ataşov S.V.Salahov, İ.K.Süleymanov və digərlərinin adları sadalana bilər. Adı çəkilən mütəxəssislər öz əsərlərində kənd təsərrüfatı sektorunun inkişafının və xarici iqtisadi əlaqələrin formalaşmasının ümumi problemlərinə və nəzəri məsələlərin tədqiqinə geniş yer vermişdirlər. Bu sahədə yazılan elmi işlərin əhəmiyyətinə baxmayaraq, kənd təsərrüfatı məhsullarının istehsalı və bununla bağlı olan xarici itisadi münasibətlər ayrılıqda bir tədqiqat obyekti kimi az öyrənilmişdir. Bu problemlərin tətqiqiylə bağlı elmi işlər, monoqrafiyalar və məqalələr kənd təsərrüfatı sahəsində xarici ticarət əlaqələrinin inkişafını tam olaraq açıqlamır. Bütün bunları nəzərə aldıqda dissertasiya işi bu sahədə xarici iqtisadi əlaqələrin formalaşdırılaraq səmərəli inkişaf etdirilməsi mexaniminin yaradılması problemlərinin həllinə hərs olunmuşdur.

**Tədqiqatın məqsəd və vəzifələri:** Tədqiqatın aparılmasında əsas məqsəd ölkənin xarici bazarlarla əlaqəsinin araşdırılıb müəyyən edilməsi və ixrac zonasının genişləndirilməsi üçün təkliflərin hazırlanmasından ibarətdir. Bu tədqiqatda Azərbaycanda istehsal olunan kənd təsərrüfatı məhsullarının ixracında logistik fəaliyyətin mövcud vəziyyəti araşdırılacaq və bu fəaliyyətin zəif yönləri dəyərləndirilərək, problemlərin həlli üçün təkliflər irəli sürüləcəkdir.

Tədqiqatın aparılması üzrə analizlər nəticəsində təkliflərin ortaya qoyula bilməsi üçün aşağıdakı vəzifələr yerinə yetiriləcək:

1. Kənd təsərrüfatı məhsullarının istehsal və ixrac potensiallarının formalaşmasına təsir göstərən amilləri araşdırmaq;
2. Kənd təsərrüfatı məhsullarının ixracında səmərəliliyin yüksəldilməsi strategiyalarını öyrənmək;
3. Kənd təsərrüfatı məhsulları bazarının və onunla bağlı olan xarici ticarət əlaqələrinin inkişaf istiqamətlərini müəyyənləşdirmək;

4. Bu gün tətbiq olunacaq strategiyaların gələcəkdəki nəticələrinin perspektivlərini müəyyənləşdirmək;

5. Kənd təsərrüfatı məhsullarının istehsalı və ixracı üçün rəqabətqabbiliyyətli məhsulların istehsalının artırılması məqsədilə elmi cəhətdən əsaslandırılmış təkliflər hazırlamaq.

**Tədqiqatın obyekt və predmeti:** Tədqiqatın predmetini Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsulları üzrə potensial ixrac-satış zonasının müəyyən edilməsi təşkil edir. Tədqiqatın obyekti kimi isə kənd təsərrüfatı məhsullarının istehsalıyla məşğul olan sahibkarlıq subyektləri seçilmişdir.

**Tədqiqat metodları:** Dissertasiya işinin yazılması zamanı ölkəmizdə istehsal edilən kənd təsərrüfatı məhsullarının ixrac potensialı qiymətləndirilmiş, ixrac edilən aqrar məhsul qrupları üçün müvafiq daşınma metodunun seçilməsi məsələləri təhlil edilmiş və kənd təsərrüfatı məhsullarının uzun müddət saxlanması və uzaq məsafələrə ixrac edilə bilməsi üçün görüləcək tədbirlər qiymətləndirilmişdir. Bunun üçün mümkün daşıma istiqamətləri və daşınma metodları araşdırılmışdır. Bu araşdırmaların aparılması məqsədilə statistik təhlil, müqayisəli təhlil, analiz və sintez metodlarından istifadə edilmişdir.

Tədqiqatın nəzəri-metodoloji əsasını yerli və xarici alimlərin, iqtisadçıların, logistika şirkətlərində logistika strategiyalarının formalaşmasında analizlərdən istifadənin tətbiqi ilə əlaqəli öz əsərlərində qeyd olunmuş fikir və müddəalar təşkil edir. Tədqiqatda eyni zamanda rus, Azərbaycan ədəbiyyatından, dərsliklərdən, internet resurslarından, dövlətin rəsmi statistik saytlarından istifadə edilmişdir.

**Tədqiqatın informasiya bazası:** Dissertasiya işinin informasiya bazasını rus, Azərbaycan ədəbiyyatı, dərsliklər, internet resursları, dövlətin rəsmi statistik saytları, yekunlar, müsahibə və analiz metodunun tətbiqi yolu ilə əldə olunan birinci əl məlumatlar təşkil edir.

**Tədqiqatın məhdudiyyətləri:** Kənd təsərrüfatı məhsullarının böyük bir hissəsinin ailə təsərrüfatları tərəfindən istehsal edilməsi, korporativ şirkətlərin payının

az olması lazımi məlumatların əldə edilməsini çətinləşdirir. Tədqiqatın əsas informasiya bazası kimi çıxış edə biləcək saytlarda məlumat əlçatanlığının zəif təmin edilməsi və ixrac üçün daşıma kargo şirkətlərinin əsas hissəsini rus və türk şirkətlərinin təşkil etməsi, yerli şirkətlərin az olması məlumatların əldə olunmasını çətinləşdirir.

**Tədqiqatın elmi yeniliyi:** Son illərdə dövlətimizin əsas iqtisadi məqsədlərindən biri qeyri-neft sektorunu xüsusən də kənd təsərrüfatını inkişaf etdirməkdir. Son illərdə bununla bağlı əsaslı addımlar atılmışdır. Tədqiqat işində yeni tədbirlər haqqında əsaslı məlumatlar verilmiş, atılan addımların nəticələri təhlil edilmiş, ixrac bazarının genişləndirilməsi üçün yeni təkliflər hazırlanmışdır.

**Nəticələrin praktiki əhəmiyyəti və tətbiq sahələri:** Tədqiqatın dövlətimizin aqrar və logistik siyasəti üçün əhəmiyyəti böyükdür. Belə ki, tədqiqatda əldə olunan nəticələr kənd təsərrüfatının yeni ixrac bazarlarının aşkar edilməsinə, bu sahədə logistik inkişafa nail olunmasına, potensial satış bazarlarının müxtəlif amillərinin doğru şəkildə təhlil olunmasına gətirib çıxara, eyni zamanda bu sahədə fəaliyyət göstərən şirkətlərin planlama prosesində iqtisadi inkişafa dəstək ola bilər.

# I FƏSİL. AZƏRBAYCANDA KƏND TƏSƏRRÜFATI MƏHSULLARI ÜZRƏ POTENSİAL İXRAC-SATIŞ ZONASININ MÜƏYYƏN EDİLMƏSİNİN NƏZƏRİ-METODOLOJİ ƏSASLARI

## 1.1. Azərbaycan praktikasında potensial satış zonası və onun logistik praktikada tətbiqinin zəruriliyi

Azərbaycanda əksər ərzaq məhsuları və kənd təsərrüfatı məhsullarının istehsalı üçün potensial üstünlüklər vardır. Bu məhsulların istehsalının genişləndirilməsi ixrac imkanlarının artırılmasına, dünya bazarının tələblərinə uyğun və rəqabətədavamlı məhsul istehsalının təşviqinə, idxalın əvəz edilməsinə, yeni ixrac-satış bazarlarının tapılmasına şərait yaradacaqdır. Kənd təsərrüfatı məhsullarının istehsalı və ixracının təşviqində dövlət tənzimləməsinin əsas rolu dəyər zincirinin ilk həlqələrində ortaya çıxır. Lakin prosesin sonrakı mərhələlərində də dövlət dəstəyinin göstərilməsi inkişafı stimullaşdıracaqdır.

Aqrar sənaye məhsulları istehsalının stimullaşdırılması və ixracının təşviqi üçün beş prioritet istiqamət müəyyən edilmişdir ("Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi" (6 dekabr 2016):

1. Daxili bazarın tələbatını tam ödəməklə, xarici bazara rəqabətədavamlı məhsulların çıxarılması və emal sənayesinin inkişaf etdirilməsilə idxalda hazır məhsulun payının artırılması
2. İdxalın əvəz edilməsi üçün ixrac potensialı yüksək olan kənd təsərrüfatı və aqrar-emal sənayesi məhsullarının istehsalının genişləndirilməsi üçün tədbirlərin görülməsi, təlim-təşviqat işlərinin aparılması
3. Aqrar sənaye sahələri üzrə kooperasiyaların yaradılması, fermer tərəfdaşlığının formalaşdırılması istiqamətində plan-proqramların təşkili və həyata keçirilməsi
4. Kompleks tədbirlərin və layihələrin həyata keçirilməsi üçün özəl sektorla dövlət strukturları arasında əməkdaşlığın formalaşdırılması

5. Aqrobiznes inkişaf etidirlməsi üçün əlverişli iqtisadi, informasiya və hüquqi mühitin yaradılması, lazımi infrastrukturların formalaşdırılması

Ölkəmizin xalis ticarət balansını analiz etdikdə bir neçə kənd təsərrüfatı məhsulunun yüksək ixrac potensialı olduğunu görürük. Bunlardan ən önəmlisi təzə meyvə -tərəvəz və fındıq məhsullarıdır. Geniş istehsalı üçün əlverişli şərait olmasına və ixrac üçün potensialının yüksək olmasına baxmayaraq fındıq və digər qərzəkli meyvələrin yetişdirilməsinə sahibkarlar maraqlı deyillər. Son illərdə fındıq və fındıq məhsullarının istehsal və ixrac həcmində artım müşahidə edilsə də, bu artım ancaq dövlət hesabına salınan fındıq bağları hesabına mümkün olmuşdur. 2015-ci ildə fındıq məhsullarının ixrac dəyəri 220 milyon ABŞ dolları dəyərində olduğu halda, 2019-ci ildə bu məbləğ 76 milyon 900 min ABŞ dolları olmuşdur. Ötən ilin həmin dövrü ilə müqayisədə fındıq məhsullarının ixracında 90%-ə qədər artım müşahidə edilmişdir. Azərbaycanın fındıq məhsullarının əsas idxalçıları Rusiya, yeni il ərəfəsində Avropa ölkələri, xüsusilə, İtaliya, Polşa, Çexiya və Almaniyadır. Sahibkarların fındıq istehsalına marağını cəlb etməklə bu sahədə özəl sektorun fəaliyyətindən yararlanmaq olar (https://www.agro.gov.az/az/news/cari-ilin-8-ayinda-findiq-ixraci-oeten-ilin-eyni-doevrue-ile mueqayisede-89-9-faiz-artib, 2021).

Ölkəmizdə kornişon, pomidor və konservləşdirilmiş pomidor məhsulları, şəkər və şəkər məmulatları, təzə meyvə-tərəvəz (nar, şaftalı, çiyələk, alma, xurma, gilas), günəbaxan yağı, günəbaxan tumu və yaşıl çay yarpağı məhsullarının ixrac imkanlarının artırılması üçün əlverişli şəarit mövcuddur. İxrac imkanları olan digər sahələr üzümçülük məhsulları, üzüm şərabı və ondan alınan spirt istehsalı, meyvə şirəsi istehsalı, margarin istehsalı, biyan kökü, sıxılmış soyuq halda qoz yağı, çaytikanı yağı, zəfəran və sair məhsullar istehsalı, pambıqçılıq və tütünçülük məhsulları istehsalı və sairdir ("Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi", 6 dekabr 2016).

Aparılan təhlillər göstərir ki, Azərbaycan kənd təsərrüfatı məhsullarının ixrac edildiyi bazarlar başda Rusiya Federasiyası olmaqla MDB ölkələrinə daxil olan Şərqi

Avropa və Orta Asiya bazarları, habelə Avropa İttifaqı ölkələrinin bazarları və Ukraynadır.

Ticarət sanksiyalarının aradan qaldırılması ilə aqrar sənaye məhsullarını İran bazarlarına ixrac imkanı da yaranacaqdır. İran İslam Respublikasının idxal məhsulları arasında əsas yeri dənli bitkilər, buğda və çovdar qarışığı olan meslin, arpa və qarğıdalı tutur. Bu kənd təsərrüfatı məhsullarının ölkəmizdə istehsal imkanları genişdir. Torpaq və iqlim şəraiti də istehsala imkan verir. Sözügedən məhsulların istehsalının genişləndirilməsi qeyri-neft məhsulları ixracında alternativ olacaq, logistik cəhətdən daha az xərclə ixrac mümkün olacaqdır. Təəssüf ki, taxıl və taxıl məhsullarının kommersiya məqsədli istehsalını həyata keçirən subyektlərin azlığı ümumi taxıl məhsulları həcminin ixrac üçün kifayət etməməsi ilə nəticələnir. Bu səbəbdən, İran bazarlarına dənli bitkilərin ixracına nail olmaq uzun vaxt dilimi tələb edəcəkdir. İran bazarlarına ixrac potensialı olan digər məhsul qrupları fındıq, toyuq, xurma və üzümdür.

Tütün, barama və pambıq kimi stateji əhəmiyyətə malik kənd təsərrüfatı məhsullarının istehsalını inkişaf etdirmək və onların ixrac payını artımaq məqsədilə qısamüddətli və uzunmüddətli dövrlər üçün strategiya müəyyən edilmişdir ("Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi" 6 dekabr 2016):

1. Qısamüddətli dövrdə xammal əsaslı ixracın təşviq edilməsi
2. Uzunmüddətli dövrdə emal sənayesinin inkişafı ilə hazır məhsul istehsalının təşviqi, idxalın əvəz edilməsi və ixracda emal məhsullarının payının artırılması

Potensial ixrac-satış bazarlarının olması hələ ixracı həyata keçirə bilmək üçün əsas vermir. Ölkəmizdə istehsal edilən kənd təsərrüfatı məhsullarının həcmi ixrac üçün kifayət etmir, digər tərəfdən, çeşidlilik olduqca aşağıdır. İxrac problemlərindən biri də Rusiya bazarlarından asılılığın yüksək səviyyədə olmasıdır. 2020-ci ilin yekunları ilə bağlı çıxış edən Prezident İlham Əliyev ixrac məhsullarının böyük bir hissəsinin Rusiya bazarlarına satıldığını və bunun tədricən ixrac asılılığına çevrildiyini bildirib. Ötən ilin

sonunda bəzi kənd təsərrüfatı məhsullarımıza qoyulan idxal qadağaları onun bu fikirlərini təsdiqləməyə imkan verir. İqtisadçı ekspertlərin təhlilləri göstərir ki, ölkəmizin aqrar sənaye məhsullarının ixracı üçün potensial xarici bazarlar Orta Asiya və Avropa ölkələrindədir. Lakin məhsulların istehsal şərtlərinin standartlara cavab verməməsi, sahələrin zəif şaxələnməsi, mövcud logistik problemlər və sair, bu bazarlara çıxışı məhdudlaşdırır. Orta Asiya və Avropa bazarlarına çıxış imkanlarını genişləndirmək üçün Ümumdünya Ticarət Təşkilatına üzv olmaq qaçınılmazdır.

Ölkəmizin kənd təsərrüfatı məhsullarının 80%-dən çox hissəsi Rusiya bazarlarına ixrac edilir. Pomidor və pomidor məhsullarının 90%dən çoxu yenə Rusiya bazarları tərəfindən idxal edilir. Bu isə iqtisadi asılılıqdan danışmaq üçün yetərincə üstün göstəricilərdir. İlk növbədə, yaxın region ölkələrində potensial bazarlar arşdırılmalıdır. Lakin ixracın həcmində əsas yeri tutan aqrar məhsullar qonşu ölkələrin də ixrac məhsulları qrupuna daxildir. Belə olan halda, qarşımızda iki istiqamət vardır:

1. İxrac potensiallı kənd təsərrüfatı məhsullarının diversifikasiyasına nail olmaq və xammal əvəzinə hazır emal məhsulları ilə xarici bazarlara çıxmaq
2. Nisbətən uzaq regionlara məhsul ixracı üçün logistik problemlərin həllinə nail olmaq

Orta Asiya regionu məhsullarımız üçün potensial ixrac bazarlarına sahibdir. Qazaxıstan, Tacikistan və Qırğızıstan bazarlarına məhsul çıxarmaq imkanımız geniş olsa da, burada illərdir yüksək reputasiyaya sahib Özbəkistan məhsulları ilə rəqabət etməli olacağıq. Təhlil nəticəsində bəlli olur ki, hazırda yeni xarici bazarlara çıxış imkanlarımızı məhdudlaşdıran digər məsələ məhsulların rəqabətqabiliyyətlilik səviyyəsinin aşağı olmasıdır.

Azərbaycanda istehsal edilən kənd təsərrüfatı məhsullarının bir hektara görə əldə edilən həcmi dünya və Avropa orta göstəricisindən aşağıdır. Bunun səbəbi inkişafın ekstensiv xarakter almasıdır. Elm və texnikanın yüksək sürətlə inkişaf etdiyi hazırki dövrdə ekstensiv inkişafla kənd təsərrüfatı istehsalının genişləndirilməsi çətin məsələdir. Digər tərəfdən, ərazi cəhətdən kənd təsərrüfatına yararlı torpaq sahələri

istehsalı eninə inkişaf etdirmək üçün kifayət etmir. İnnovativ yanaşmaların tətbiqi, müasir texnika və texnologiyalardan istifadə, dövlət səviyyəsində innovasiyalaşma istiqamətində tədbirlərin görülməsi bir tərəfdən ixrac məhsullarının çeşidliyini artıracaq, məhsulların rəqabətədavamlılığını təmin edəcəkdir. Özəl sektorun kənd təsərrüfatına marağının artırılması da aktual məsələlərdəndir.

Məhsuldarlığı artırmaq üçün əl əməyindən istifadə azaldılmalı, bitkiçilikdə toxum və gübrələrin elmi seleksiyadan istifadə əsasında seçimi təmin edilməli, aqrotexniki qaydalara riayət edilməli, dövlət və özəl sektorun bu sahədəki əməkdaşlığına nail olunmalıdır. Ənənəvi məhsullarla yanaşı dünya bazarının tələblərini öyrənməklə müvafiq məhsul istehsalının həyata keçirilməsi də məqsədəuyğun olar. İxrac məhsullarının çeşidlənməsini təmin etmək üçün kənd təsərrüfatı məhsullarının emal prosesinə cəlbinə nail olmaq lazımdır.

Kənd təsərrüfatı məhsullarının istehsalı ilə bağlı mövcud problemlərdən biri də ixtisaslı kadr çatışmazlığıdır. Bu sahədə müvafiq işlər görülməli, kənd təsərrüfatı istehsalçıları ixtisasartırmaya cəlb edilməli, fermerlər müasir kənd təsərrüfatı istehsal üsulları, habelə texnikaları ilə tanış edilməli, zamanla təşkil edilən təlim-tədbirlər vasitəsilə maarifləndirmə işlərinə yer verilməlidir. Kənd təsərrüfatının inkişafını hədəfləyən dövlət proqramları çərçivəsində ixtisaslı kadrların yetişidirlməsi ilə bağlı müvafiq dövlət tədbirləri nəzərdə tutula bilər.

Müzəffər ordumuzun və Ali Baş Komandanın başçılığı ilə otuz illik işğaldan sonra torpaqlarımız geri alınmışdır. 44 günlük müharibəilə əldə edilən qələbə siyasi və mənəvi nəticələri ilə yanaşı, iqtisadi baxımdan bir sıra yeni məsələləri aktual etmişdir. Məlumdur ki, Dağlıq Qarabağ iqtisadi regionu özünün istər bitkiçilik, istərsə də heyvandarlıq sahələri üzrə yüksək istehsal potensialına malikdir. Bu ərazilərin istismardan sonrakı dövr üçün yenidən qiymətləndirilməsi labüddür. Torpaqlarımızın işğaldan azad olması kənd təsərrüfatı üçün yeni inkişaf perspektivləri təmin etməklə yanaşı, istər neft-qaz, istərsə də qeyri-neft məhsullarının daşınması, xarici bazarlara çıxarılması üçün yeni imkanlar təmin edəcəkdir. Əlverişli coğrafi mövqe və qonşuluq

imkanları Dağlıq Qarabağda sənaye qovşaqlarının yaradılması üçün əlverişli şərait yaradır, xüsusilə, Avropa bazarlarına çıxış imkanlarını genişləndirir.

2020-ci ilin əvvəlindən başlayaraq, Yaxın Şərq və Körfəz ölkələrinə məhsul ixracının təmini istiqamətində işlər görülməyə başlanmışdır. Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində fəaliyyət göstərən və əsas iş prinsipləri yerli istehsalçıların, fermerlərin ixrac əməliyyatlarına təşviq edilməsi olan "Aqrar Tədarük və Təchizat"ASC 2020-ci ilin yanvar-mart aylarında bir sıra Körfəz ölkələrinə səfər etmiş, müvafiq qurumlarla əməkdaşlıq üçün addımlar atmışdır. Nəticədə Azərbaycanın kənd təsərrüfatı məhsullarının "Al Meera Group" şirkətinə məxsus mağazalar şəbəkəsində satışına dair razılıq əldə edilmişdir. Qeyd etmək istərdim ki, bu şirkətin mağazaları Qətər və Oman ölkələri ərazisində yerləşir. Körfəz ölkələrinə ixracı məhdudlaşdıran başlıca səbəb Hindistandan həmin ölkələrə daha az maya dəyərilə məhsul idxalının mümkün olmasıdır. Hazırki logistik və digər problemlər sözügedən regiona məhsul ixracını yüksək xərc tutumlu edir, bu da, öz növbəsində, həmin bazarlarda möhkəmlənməni ləngidir.

Az həcmdə olsa da, spirtli içkilər bəzi Afrika ölkələrinə (məsələn, Qana) ixrac edilir. Həmçinin meyvə şirələri, spirtli və spirtsiz içkilər, konsentratlar Sinqapur və Malayziya kimi Cənub-Şərqi Asiya ölkələrinə az həcmdə ixrac edilir.

21-ci əsrin əvvəlindən başlayaraq texnika və texnologiyanın sürətli inkişafı, elmi-texniki tərəqqinin nailiyyətləri, innovativ yeniliklər istehsal sferasının, demək olar ki, bütün sahələrində yenidənqurmanı labüd etdi. Araşdırmalar göstərir ki, hazırkı texniki innovativ tətbiqlər məhsuldarlığı daha rahat üsullarla artırmağa imkan verir. Nəticədə, intensiv üsullarla, otlaq sahələrini və ya torpaq ərazilərinin həcmini artırmadan məhsuldarlığın təmini əmək ehtiyyatlarından daha az istifadə etməklə mümkündür. Yeni istehsal üsullarının formalaşması istehlakçılar üçün məhsul çeşidliliyini də artırmışdır. Bu yolla ölkəmizdə də kənd təsərrüfatı məhsullarının müxtəlifliyini artırmaq, ixrac məhsullarının diversifikasiyasına nail olmaq mümkündür.

Hazırda dünya praktikasında kənd təsərrüfatında örüş yerlərinin, otlaqların təyin edilməsində, torpaqlarda ziyanvericilərin yuvalarının təyin edilməsində, torpaqların yararlılıq səviyyəsinin ölçülməsində dron texnologiyasından istifadə edilməkdədir. Peyklər vasitəsilə əldə edilən ortofotolar və təsvirlər bitkilərin vegetasiya dövrünü müəyyən etməyə, əkinəyararlı torpaqları bitkilər üzrə qruplaşdırmağa, otlaqların inventarizasiyasına, kənd təsərrüfatı bitkilərində müşahidə edilən xəstəliklərin yayılma ərazilərini və istiqamətlərini təyin etməyə imkan verir. Həmçinin torpaqların şoranlaşma göstəricilərini, irriqasiya vəziyyətini, rütubətlilik dərəcəsini də peyk təsvirləri vasitəsilə təyin etmək artıq mümkündür.

Müasir texnika və texnologiyaların tətbiqi böyük həcmdə maliyyə xərcləri və davamlı yeniləmə tələb edən prosedurdur. Durmadan yenilənən texnika və avadanlıqları izləmək, innovativ dəyişikliklərlə ayaqlaşmaq kiçik və orta sahibkarlar üçün olduqca çətindir. Nəzərə almaq lazımdır ki, milli iqtisadiyyatımızda kənd təsərrüfatı məshulları istehsalçıları arasında əsas yeri ailə-kəndli təsərrüfatları, fermerlər və kiçik və orta sahibkarlıq subyektləri tutur. Bu səbəbdən, aqrar sektorun innovasiyalaşması ildən-ilə ləngimişdir. Hazırda ölkəmizdə kənd təsərrüfatının innovasiyalaşması və sahibkarlıq subyektlərinin aqrar sahəyə olan marağının artırılması istiqamətində işlər gedir. Son illərdə, ölkədə aqrar sektor üzrə istifadə edilən texnika və texnologiyaların, robotların, avadanlıqların sayında artma müşahidə edilmişdir. İnformasiya sistemlərinin qurulması, ağıllı bağların yaradılması, kənd təsərrüfatında dronlardan istifadə, biotexnoloji laboratoriyaların formalaşdırılması, yeni və xəstəliklərə daha çox davamlı bitki sortlarının yaradılması, virussuz tinglərin yetişdirilməsi, satelitlərdən istifadə ilə əkin bitkilərinin torpaqlar üzrə daha səmərəli yerləşdirilməsi və görülən digər işlər kənd təsərrüfatı məhsulları istehsalında əsaslı artımla və məhsuldarlıqla müşahidə edilmişdir.

Ölkəmizdə yetişdirilən və potensial ixrac məhsulu hesab edilən digər kənd təsərrüfatı məhsulu qızılgüldür. Qızılgülün yetişdirilməsi üçün əlverişli torpaq-iqlim şəraiti olmasına baxmayaraq, ölkədə gül istehsalı aşağı göstəricilərlə istehsal

edilmişdir. Kənd təsərrüfatı məhsullarının əsas istehsalçılarından və ixracatçılarından biri olan "Synergy Group" şirkəti qızılgül istehsalı ilə məşğul olur və ixrac üçün müvafiq həcmdə istehsal göstəricilərinə malikdir. 2019-cu ildən etibarən ixrac istiqamətli qızılgül istehsalına başlamışdır. Şirkət qızılgül yetişdirilməsini Şəmkirin Sarıtəpə kəndində yerləşənn "AzAgro MMC" müəssisəsində reallaşdırır. Qızılgülün yetişdirilməsində innovativ istehsal üsullarından istifadə edilir, əkinlərin komputer texnologiyaları ilə idarəolunması həyata keçirilir. Bütün əkin sisteminin komputerlərlə idarə edildiyi bu müəssisədə qızılgüllər tam torpaqsız şəraitdə, istixana rejimində və mineral substratlarda yetişdirilir. İllik istehsal gücü 3 milyon güldən çox olan müəssisənin fəaliyyəti ilə yerli bazarın gül və gül məhsullarına olan tələbatını qismən ödəmək mümkün olmuş və daxili bazarda gül məhsullarının qiymətində azalma müşahidə edilmişdir. İlkin olaraq məhsullar Rusiya Federasiyası və Gürcüstan bazarlarına ixrac edilmişdir. Yaxın gələcəkdə gül ixracının digər region ölkələrinə və Şərqi Avropa ölkələrinə də ediləcəyi gözlənilənlir.

Yeni anbar texnologiyalarının tətbiqi ilə bir sıra məhsulların uzun məsafələrdə daşınması və daha uzun müddətdə saxlanılması mümkün hala gəlmişdir. Bunlardan biri də çiyələkdir. Hələ 20-30 il əvvəl mövsümlük meyvə hesab edilən və tezxarab olan meyvə qrupuna daxil olduğundan ancaq yaxın ərazilərə daşınması mümkün olan çiyələk məhsullarının "sürətli soyutma" adlı müasir anbarlardan istifadə edilməklə bütün fəsillərdə saxlanılması həyata keçirilir. Həmçinin yüksək texnologiyalı və komputer sistemi ilə fəaliyyət göstərən istixanalar hava şəaritindən asılı olmadan məhsul istehsalını təmin edir. 2018-ci ildən etibarən ölkəmizdə də çiyələk yetişdirilməsində və saxlanmasında innovativ istehsal üsullarından istifadə edilməyə başlanmışdır. "Sürətli soyutma" anbarları ilə təchizat hesabına daşınma vasitələri uzun məsafələrdə məhsulun istifadəyə yararlı nəqlini təmin edir. Fermerlərin yerli bazarlara nisbətən, xarici bazralrda daha yüksək qiymətlərlə məhsullarını təklif etmə imkanları olduğunu nəzərə alaraq bu tətbiqin ixracı stimullaşdıracağını deyə bilərik. Dünya bazarında çiyələk və çiyələk məhsullarının bir nömrəli alıcısı ABŞ və Kanadadır,

Avropada isə Almaniyadır. Azərbaycan çiyələyi üçün potensial ixrac bazarı Amerika ölkələri ola bilməz. Lakin hazırda Yaxın Şərq və Körfəzdə yerləşən ərəb ölkələri ölkəmizdə istehsal olunan meyvə və giləmeyvə məhsullarının, habelə çiyələrin potensial ixrac-satış bazarı hesab edilir. Yaxın gələcəkdə bu istiqamətdə ixrac imkanlarının genişləndirilməsi nəzərdə tutulur. Bu soyutma anbarları ilk olaraq 2019-cu ildə Cəlilabad rayonundakı çiyələk istehsal müəssisələrində quraşdırılıb və bir il ərzində Qətər, Küveyt, BƏƏ və digər ərəb ölkələrindən idxal üçün təkliflər alınıb. 2019-cu ilin sonunadək Küveyt bazarlarına 700 kq çiyələk ixracı həyata keçirilmişdir.

Azərbaycanın kənd təsərrüfatı istehsalında ənənəvi sahələrindən biri də meyvə şirələri istehsalıdır. Bu məhsullar Avropa və Cənub- Şərqi Asiya ölkələri də olmaqla 50-dən çox ölkəyə ixrac edilir. Son illərdə alternativ içki məhsullarının, xüsusilə spirtli içkilərin istehsalı genişlənmişdir. Şərab və çaxır istehsalı ilə yanaşı rakı istehsalına başlanmışdır. Ekspertlərin fikrinə görə bu məhsulların istehsal potensialı genişdir və stimullaşdırıcı tədbirlər sahənin ixrac yönümlü məhsul istehsal edən sahəyə çevrilməsinə yardım edə bilər. Hazırda ölkəmizdə istehsal edilən nar şirələri hətta Avstraliya, Kanada, Malayziyaya ixrac edilir. Nar şirələrinin əsas idxalçıları isə Rusiya Federasiyası və Avropa ölkələri bazarlarıdır. Spirtli içkilərin ixrac edildiyi bir nömrəli bazarlar Ukrayna və Rusiya bazarlarıdır. Az miqdarda olsa da nar çaxırları Polşa, Litva və Çexiyaya da ixrac edilir. Narçılığın və nar məhsulları istehsalının genişləndirilməsi istiqamətində işlər görülməsi mütləqdir. Çünki bu məhsul “brendləşmiş məhsul” olma potensialına malikdir. İşğaldan azad edilmiş ərazilərdə də nar yetişdirilməsi üçün əlverişli torpaqlar vardır. Səmərəli yerləşdirmə hesabına nar və nar məhsulları ölkəmizin əsas ixrac məhsullarından birinə çevrilə bilər. Azərbaycan narının potensial ixrac bazarları sırasına Afrika materikinin bəzi ölkələri də daxildir. 2020-ci ildə ilk dəfə qeyri-ənənəvi bazar hesab edilən Nigeriya bazarına qablaşdırılmış gilas ixracına başlanmışdır. Daha sonra ilin sonuna doğru sınaq məqsədilə bir ton həcmində nar Nigeriya bazarına ixrac edildi. Nigeriya bazarlarını ixrac üçün əlverişli edən cəhət burada nar və nar məhsullarının qiymətinin yüksək olmasıdır. Belə ki, bazarda narın bir

kiloqramı 4 min Nigeriya nayrosuna təklif edilir, bu da təxminən 21 manat təşkil edir. Nar məhsullarının ənənəvi ixrac-satış bazarı isə Rusiya və Ukraynadır. Son iki ildə Polşa və Fransaya da məhsul ixrac edilməyə başlanıb. Azərbaycan narı Fransada ilk dəfə dünyanın bir nömrəli aqrar məhsullar bazarı sayılan və B2B xarakterli "Rungis Marche International" bazarında istehlakçılara təqdim edilmişdir. Məlumdur ki, bu bazarda məhsulların alıcıları qismində biznes strukturları, kafe və restoranlar, otellər və sair çıxış edir.

Ölkəmizin yüngül sənaye məhsulları arasında ənənəvi ixrac xarakteri daşıyan məhsullardan biri də ipək və ipək məhsullarıdır. Neft və neft məhsulları istehsalından əvvəlki dövrlərdə başlıca istehsal və ixrac sahələrindən olsa da, müstəqillikdən sonrakı dövrdə ikinci planda qalmış sektorlardan olmuşdur. Lakin yerli əhalinin ipəkçilik və baramaçılıqla bağlı istehsal ənənələrinə sahib olması, regionda ipək məhsulları ilə tanınması, bəzi regionlarda istehsal imkanlarının geniş olması, habelə son illərdə ipəkçiliyin inkişafına dövlət dəstəyinin göstərilməsi ilə bu sahədə yenidən canlanma müşahidə edilir. Dünya bazarında ipək məhsulları üzrə rəqabət yüksək olsa da, son illər ərzində ümumi qiymətlərdə azalma müşahidə edilir. Bunun səbəbi Covid-19 pandemiyasının istehsal sektoruna mənfi təsirləri hesab edilir. Ölkəmizdə istehsal edilən ipək və ipəkçilik məhsullarının ixracı ilə bağlı 2020-ci ildən etibarən müəyyən addımlar atılmağa başlanmışdır. Bu sahədə "Azəripək MMC" daha aktiv fəaliyyət göstərir. Ötən ilin ilk on ayı ərzində Azərbaycandan Türkiyə bazarlarına 11,58 min quru halda ipəkqurdu baraması ixrac edilmişdir. İpək məhsullarının yeni ixrac-satış bazarlarının müəyyən edilməsi məqsədilə ötən ildən başlayaraq Ukrayna, ABŞ, Türkiyə, Rusiya, BƏƏ, Qətər, İtaliya, Çin və sair ölkələrə ipək məhsulları üzrə nümunələr göndərilmişdir.

## 1.2. Kənd təsərrüfatı məhsullarının ixrac ediləcəyi xarici bazarların müəyyən edilməsi metodları və xarici bazarın seçilməsinə təsir edən iqtisadi faktorlar

Kənd təsərrüfatı məhsullarının ixrac problemlərindən danışarkən, daşınma və logistik sahədə mövcud problemlər də qeyd edilməlidir. Bildiyimiz kimi aqrar sənaye məhsullarının böyük bir qismi uzaq məsafələr daşınma, uzun müddət saxlanma məsələlərində daha həssasdırlar. Belə məhsul qruplarının ixracını təmin etmək üçün ilk növbədə lazımi saxlama, qablaşdırma işləri inkişaf etdirilməli, müasir texnikalardan, soyutma avadanlıqlarından istifadə edilməlidir. Uzaq məsafələr daşınma zamanı itkini minimuma endirmək üçün yüksək texnologiyalarla təchiz edilmiş və xüsusi təyinat üzrə istifadə edilən anbarlardan istifadə təmin edilməlidir. Ümumiyyətlə, ölkəmizdə logistik sahədə müşahidə edilən başlıca problemləri aşağıdakı kimi sıralaya bilərik ("Azərbaycan Respublikasında logistika və ticarətin inkişafına dair Strateji Yol Xəritəsi" (6 dekabr 2016):

- Sahibkarlıq müəssisələrində modern biznes modelinin qurulmaması
- Daşınmalarda innovativ tətbiqlərin azlığı
- İstifadə edilən texnikaların, avadanlıqların köhnə olması
- Kənd təsərrüfatı istehsalçılarının müasir logistik vasitələrdən istifadəni təmin edəcək maliyyə ehtiyyatlarının olmaması
- Paylama, marketinq və satış xidmətlərinin zəif təşkili və qənaətbəxş olmaması
- Logistika sahəsində yüksək ixtisaslı kadr çatışmazlığı
- Əmək məhsuldarlığının aşağı olması

Məhsulların dəniz yolu ilə daşınmasında ortaya çıxan başlıca problemlər isə:

- Xəzər dənizinin dərinliyinin kifayət qədər olmaması
- Yükdaşıma gəmilərinin potensial yükgötürmə qabiliyyətinin az olması
- İl ərzində küləkli günlərin çox olmasıdır.

Dünya iqtisadiyyatında maliyyə böhranlarının yaşanması, neftin qiymətindəki kəskin ucuzlaşma, manatın dollar qarşısında devalvasiyaya uğraması və üzən məzənnəyə keçməsi və pandemiya səbəbilə istehsal sektorlarının fəaliyyətinin

zəifləməsi milli iqtisadiyyatımızda logistik sahələrin inkişafını biraz daha ləngitmişdir. Bildiyimiz kimi, logistik layihələr yüksək maliyyətutumludur və investisiyalar tələb edir. İqtisadi və siyasi sabitliyin şüphə doğurması, valyutanın sabit platformada olmaması kimi faktorlar milli iqtisadiyyatımızda istehsal sektorlarının investisiya cəlbediciliyini aşağı salır ("Azərbaycan Respublikasında logistika və ticarətin inkişafına dair Strateji Yol Xəritəsi" 6 dekabr 2016).

Logistik sahədə qarşımıza çıxan digər problem kənd təsərrüfatı istehsal subyektlərinin məhsul depolama və anbarlama fəaliyyətinə zəif idarəetmənin olmasıdır. Anbarların həcmi, sahəsi, növü, yerləşmə yeri, saxlama xüsusiyyətləri və sair faktorlar məhsulun xarakteristikasına uyğun təyin edilməlidir. Nəticədə itki minimuma endirilə bilər. Bunun üçün düzgün planlaşdırma və idarəetmə sistemi tələb olunur. İstehsalçıların anbar fəaliyyəti ilə bağlı qarşılaşdıqları problemləri aşağıdakı kimi sıralamaq olar (İmanzadə R., 2019):

- Fəaliyyət sahəsindən asılı olaraq anbarın xüsusiyyətləri, fəaliyyət tərzi, istifadə şərtləri, avadanlıq və texnologiyalarla təchizat səviyyəsi anlayışları nəzərə alınmadan, düzgün olmayan və xətalı anbarlardan istifadə
- Anbarlama prosesində malların boşaldılması və yüklənməsi işini asanlaşdıracaq xüsusi sahələrin təmin edilməməsi
- Anbar üçün təyin edilən yerin elastik böyümə potensialının olmaması, anbar ərazisinin sonradan genişləndirmə imkanının olmaması
- Anbar yerinin təyin edilməsində yol verilən xətalar səbəbindən icarə və nəqliyyat xərclərinin yüksək olması
- Anbarlama prosesində informasiya texnologiyalarının zəif tətbiqi və ya ümumiyyətlə tətbiq edilməməsi
- Anbarın rütubət, temperatur, işıq və digər risk amillərini ən aşağı həddə saxlamaq üçün düzgün koordinasiya işlərinin görülməməsi və sair.

Dünya təcrübəsində uzun müddətdir ki, malların və yüklərin daşınmasında logistik etiketlərin tətbiqi həyata keçirilir. Ən effektiv markalama metodu hesab edilən logistik etiketlər daşınmanı təmin edən konteynerlərin, palletlərin, altlıqların tərkibi haqqında informasiyaları, logistik vahidlərin identifikasiyasınıözündə ehtiva edən seriya kodu daşıyırlar. Azərbaycan kənd təsərrüfatı məhsulları arasında, 2017-ci ildən etibarən, AzGranata-nın məhsullarının ixracı zamanı logistik etiketlərdən istifadə edilməyə başlanmışdır. Yaxın gələcəkdə, onların tətbiqinin daha da genişləndiriləcəyi istisna edilmir.

Dövlətin tənzimləyici tədbirləri, qəbul edilən qərarlar və görülən işlər hesabına kənd təsərrüfatı məhsullarının ixrac imkanlarının genişləndirilməsi, ixracyönümlü məhsul istehsalının təşviqi istiqamətində əsaslı addımlar atılmışdır. Dövlətin ixracı stimullaşdırma tədbirləri sırasına aşağıdakıları aid etsək doğru olar (https://smb.gov.az/storage/documents/%C4%B0xrac%20BUKLET.pdf, 2020):

- Bazarların effektiv araşdırılması imkanlarını yaradılması
- Xarici ölkələrə ixrac missiyaları təşkil edilməsi
- Məhsullar üzrə beynəlxalq sertifikatlaşmaya yardım
- Alıcı missiyaların ölkə ərazisinə qəbuluna dair müraciətlərin edilməsi
- İxraca görə müəyyən dəstək məbləği
- Beynəlxlaq sərgilərdə, yarmarkalarda iştirak imkanının yaradılması və sair.

Güzəştli və aşağı faiz dərəcələri ilə kreditlərin verilməsi, infrastruktur layihələrinin həyata keçirilməsi, metodik vasitələrdən istifadə müsbət məticələr verməyə başlamışdır. Lakin bütün bunlara paralel olaraq kənd təsərrüfatı istehsal fəaliyyətində biznes subyektlərinin iştirakının genişləndirilməsi labüddür.

İxracın təşviqi istiqamətində atılan uğurlu addımlardan biri də “Azexport” portalının yaradılması oldu. Portalın yaradılması ixrac zamanı tələb olunan prosedurаların daha şəffaf həyata keçirilməsini təmin etmiş, ixracatçıların vahid elektron portal üzərindən əməliyyatlar aparması imkanını yaratmışdır.

İxracı dövlət tərəfindən təşviq edilən kənd təsərrüfatı məhsulları siyahısına konservləşdirilmiş meyvə-tərəvəz, quru meyvələr, mürəbbə və cemlər, spirtli içki və şərab, turşular, meyvə şirələri və mineral sular, dəri məmulatları, unlu qənnadı məhsulları, xalçalar və ipək parçalar da daxil edilmişdir. “Made in Azerbaijan” brendinin təkmilləşdirilməsi və təşviqi, məhsulların beynəlxalq patentlər və sertifikatlar alması üçün Çin, BƏƏ, Almaniya, Pakistan, Əfqanıstan və Qətərə ixrac missiyaları göndərilmişdir.Nəticədə bir sıra ixrac əməkdaşlıqlarının qurulmasına nail olunmuşdur. Dubaya göndərilən ixrac missiyasının bağladığı müqavilələr alma, nar şirəsi və balın ixracına dair razılaşmaları nəzərdə tutur (https://president.az/articles/23369, 2020).

14 yanvar 2019-ci il tarixində Prezident İlham Əliyevin müvafiq fərmanı ilə Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində Aqrar Xidmətlər Agentliyi yaradılmışdır. Agentliyin yaradılmasına məqsəd aqrar sahədə gösrüləcək tədbirlərin və əlavə işlərin daha az məsrəflərlə həyata keçirilməsini təmin etmək, məhsul istehsalında innovasiyaların tətbiqini genişləndirmək, şəffaflığın artırılması, səmərəli idarəetmənin təşkili, innovativ həllərin tətbiqi, kənd təsərrüfatında inzibati idarəetmə sisteminin təkmilləşdirilməsi, elektron xidmətlərdən istifadənin genişləndirilməsi, vətəndaşların məmnunluq dərəcəsinin artırılması, məhsul istehsalında keyfiyyətə nəzarətin təşkilidir. Agentliyin fəaliyyəti daxilində heyvan və bitkilərin sağlamlığı, toxumçuluq, seleksiya nailiyyətləri, kənd təsərrüfatı maşın və avadanlıqlar və digər nəqliyyat vasitələri, texnikalar üzrə xidmətlərin təşkili və sözügedən istiqamətlərdə görülən işlərə dövlət nəzarəti həyata keçirilir (http://axa.gov.az/agentlik/haqqimizda, 2019).

Aqrar Xidmətlər Agentliyinin fəaliyyətinin başlıca hədəflərini aşağıdakı kimi sıralamaq olar:

1. Heyvandarlıqda məhsuldarlığın artırılması
2. İri və xırdabuynuzlu heyvanların sağlamlığının təmini
3. Bitkiçilik sahəsində məhsuldarlıq göstəricilərinini artırılması üçün fitosanitar xidmətlərin təşkil edilməsi
4. Bitkiçilikdə məhsuldarlığın artımı üçün arqokimyəvi xidmətlərin tətbiqi

5. Toxumçuluğun idarə olunması
6. Seleksiya nailiyyətlərinin qeydiyyatı və dövlət nəzarətinin təşkili
7. Kənd təsərrüfatı texnika və maşınlarının dövlət qeydiyyatına alınmasının təşkili
8. Texnika və texnologiyalardan istifadənin və istismarın innovativ üsullarla həyata keçirilməsi

Kənd təsərrüfatı məhsullarının istehsalında innovasiyalaşmanın təşkili, bu sahəyə davamlı dövlət dəstəyinin göstərilməsi, bitkiçilik və heyvandarlıqda müasir metodlardan istifadə məhsuldarlığı artırmaqla yanaşı, daha keyfiyyətli və rəqabətqabiliyyətli məhsul istehsalını da təşviq edəcəkdir. Nəticədə məhsullar üzrə ixracın şaxələnməsinə və ixrac potensialının artırılmasına nail oluna bilər.

# II FƏSİL. AZƏRBAYCANIN İXRAC POTENSİALLI KƏND TƏSƏRRÜFATI MƏHSULLARININ VƏ ONLARIN DAŞINMASINA TƏSİR GÖSTƏRƏN İQTİSADİ AMİLLƏRİN TƏHLİLİ

## 2.1. Azərbaycan kənd təsərrüfatında ixrac əhəmiyyətli məhsulların müəyyən edilməsinin səmərəliliyi

İxracatın inkişaf etmiş sənaye ölkələrinin, həmçinin inkişaf etməkdə olan ölkələrin iqtisadiyyatlarında mühüm rol oynadığı həqiqətdir. İqtisadiyyatın inkişafında, böyüməsində iqtisadi artıma nail olunmasında mühüm rola sahib olan ixracat daxili bazarın daralması və yerli bazardakı dalğalanmalar nəticəsində alternativ satış imkanları mənasını daşıyır. Firmalar, istehsal strukturları təşkilati strukturlarında və məhsullarında əsaslı dəyişimə ehtiyac duymadan fəaliyyət göstərə bilir. İxracat makro mənada ölkənin, mikro mənada sahibkarlıq fəaliyyətinin inkişafına təsir göstərir.

**Şəkil 1: 2016-2020-ci illər üçün idxal və ixracın artım dinamikası**




**Mənbə:** OEC, https://oec.world/en/profile/country/aze/, 21.02.2021

Verilmiş qrafikdə son beş ildə ölkəmizin idxal və ixrac dəyərinin dəyişmə dinamikası əks olunmuşdur. Mavi xətlərlə idxal, qırmızı xətlərlə ixrac ifadə edilib. Təhlildən aydındır ki, idxal üstünlüyü ötən illər ərzində mövqeyini qorumuşdur. 2017-2018-ci illərdə ixracda azalma olsa da, sonradan dinamika artımla müşahidə edilib.

2020-ci ildə pandemiya ilə əlaqədar ölkələrə giriş-çıxış məhdudiyyətləri tətbiq edildi. Xarici ticarət əlaqələri zəiflədi və bu özünün ixracla bağlı statistikalarda da göstərir. 2019-cu ildən sonrakı dövrdə azalan dinamika hakim olmuşdur.

İdxalın ən aşağı səviyyəsi 2016-2017 illərdə müşahidə edilmişdir ki, bu halda illik idxal dəyəri 600 milyon ABŞ dollarından da az olmuşdur (Qrafik1).

**Qrafik 1: Xarici ticarət dövriyyəsinin dinamikası**




**Mənbə:** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, (https://www.stat.gov.az/source/trade/)/ Ticarət/ Azərbaycanın xarici ticarəti/ Xarici ticarət əlaqələrinin dinamikası/ Xarici ticarət dövriyyəsinin dinamikası

İxracat gəlir əldə etmək üçün istehlakçı qruplarının tələblərinə, istəklərinə, üstünlükvermələrinə müvafiq müəssisənin işinin planlaşdırılması, məhsul istehsalı, istifadə və nəzarət kimi prosedurålarının ölkələrarası münasibətlər çərçivəsində həyata keçirilmə formasıdır. Bununla yeni iş yerlərinin yaradılması, məşğulluq imkanlarının yaxşılaşdırılması, həyat səviyyəsinin yüksəldilməsi kimi sosial məqsədlərə dolayı yolla nail olmaq mümkündür. Əhalinin məşğulluğunun təmin olunmasında kənd təsərrüfatı istehsalının və ixracının yeri xüsusilə qeyd edilməlidir.

2019-cu ildə aqrar sənaye məhsullarının ixracdakı payı 3,8% təşkil etmişdir (Cədvəl 1). 2020-ci ilin ilk on bir ayının statistikasına nəzər salsaq, bu müddətdə kənd təsərüfatı məsullarının ixracdakı dəyərinin 5,5% olduğunu görərik.

**Cədvəl 1: 2019-ci il üçün Azərbaycanın 10 əsas ixrac məhsulu**

| Yer | Məhsulun adı | İxrac həcmi, dollarla | Faiz dərəcəsi,% |
|---|---|---|---|
| 1 | Neft və digər mineral yanacaqlar | 17,8 milyard | 90,7 |
| 2 | Meyvələr, qoz-fındıq | 362,6 milyon | 1,8 |
| 3 | Tərəvəzlər | 243,2 milyon | 1,2 |
| 4 | Plastik və plastik məhsulları | 179,4 milyon | 0,9 |
| 5 | Qiymətli daşlar və metallar | 174,5 milyon | 0,9 |
| 6 | Pambıq | 158,5 milyon | 0,8 |
| 7 | Alüminium | 128 milyon | 0,7 |
| 8 | Üzvi kimyəvi maddələr | 66,9 milyon | 03 |
| 9 | Avadanlıqlar və maşınlar | 43,9 milyon | 0,2 |
| 10 | Dəmir və polad | 39,4 milyon | 0,2 |

**Mənbə:** https://tradingeconomics.com/azerbaijan/exports saytından götürülmüş göstəricilər əsasında müəllif tərəfindən tərtib edilmişdir.

**Cədvəl 2: 2020-ci ilin ilk on bir ayı üzrə əsas ixrac məhsulları, min ABŞ dolları**

| | Malın adı | Statistik dəyəri |
|---|---|---|
| 1 | Cəmi ixrac | 13 060 548.39 |
| 2 | Neft-qaz sektoruna daxil olan mallar üzrə | 11 422 376.95 |
| 3 | Qeyri-neft sektoruna daxil olan mallar üzrə,ümumi | 1 638 171.44 |
| 4 | Meyvə-tərəvəz | 549 505.81 |
| 5 | Bitki və heyvan mənşəli piy və yağlar | 21 593.50 |
| 6 | Şəkər | 21 448.67 |
| 7 | Elektrik enerjisi | 56 786.80 |
| 8 | Kimya sənayesi məhsulları | 76 349.15 |
| 9 | Plastmas və ondan hazırlanan məhsullar | 137 352.97 |
| 10 | Pambıq | 126 882.0 |
| 11 | Qara metallardan və onlardan hazırlanan məmulatlar | 46 631.87 |
| 12 | Alüminium və ondan hazırlanan məhsullar | 97 434.52 |

**Mənbə:** https://customs.gov.az/modules/pdf/pdffolder/92/FILE_2498CE-29B014-34AA7B-44D9BD-0071FF-D04110.pdf saytından alınan göstəricilər əsasında müəllif tərəfindən hazırlanmışdır.

Müqayisəli təhlil ötən iki ildə kənd təsərüfatı məhsullarının ixracdakı payının artdığını göstərir. Ayrı–ayrılıqda müqayisə edək: 2019-2020-ci illərin ixrac statistikasına görə ixrac edilən meyvə tərəvəzin həcmində təxminən 56249 min ABŞ dolları artım, pambığın həcmində isə 31618 ABŞ dolları həcmində artım müşahidə edilmişdir.

2015-ci ildən sonrakı dövrdə müxtəlif sahələr üzrə strateji yol xəritələrinin qəbulu, qeyri-neft sektorunun inkişafı yolunda görülən işlər, aqrar sektoru canlandırmaq, bu sahədəki sahibkarların fəaliyyətini stimullaşdırmaq üçün atılan addımlar son illərin dinamikasında öz müsbət nəticələrini vermişdir (Cədvəl 1 və Cədvəl 2).

2019-cu ildə ixrac edilən mühüm növ kənd təsərrüfatı məhsullarından gələn gəlirin 3.1%-i kartof, 68.1%-i təzə meyvə və tərəvəz, 1.1%-i çay, 0.9%-i bitki yağları, 3.2%-i şəkər, 1.1%-i meyvə-tərəvəz konservləri, 0.1%-i emal olunmuş qoyun və quzu dəriləri, 18%-i pambıq lifi və ipliyi, 1.3%- meyvə-tərəvəz şirələrinin payına düşür (Cədvəl 3).

Cədvəldə ticarət dövriyyəsində, ixracda daha çox pay sahibi olan perspektivli kənd təsərüfatı məhsullarının miqdarı və onlardan gələn gəlirlər əks olunmuşdur. Azərbaycan kartofunun əsas idxalçıları Rusiya, Ukrayna, Moldova, Gürcüstan, təzə tərəvəz məhsullarının başlıca idxalçısı Türkiyə, Ukrayna, Gürcüstan və Rusiya, təzə meyvənin idxalçıları Ukrayna, Qazaxıstan, Rusiya, İtaliya, Almaniya, İran İslam Respublikası və sairdir. Azərbaycan çayının təşkil edən idxalçıları, əsasən, MDB ölkələri, onlardan Ukrayna, Gürcüstan, Qazaxıstan, bitki yağlarının idxalçıları isə Tacikistan, Türkiyə, Qazaxıstan, Gürcüstan, İraq və sairdir.

Ölkəmizdən ixrac edilən şəkərin əsas hissəsi Rusiya Federasiyası, Gürcüstan və İraq tərəfindən idxal edilir.Ümumi ixracın təxminən 0,9%- ni təşkil edən meyvə tərəvəz konservləri Rusiya, İraq, ABŞ, Qazaxıstan və sairə ixrac edilir.

**Cədvəl 3: 2019-cu ildə mühüm növ kənd təsərrüfatı məhsullarının ixracı**

| Mallar | Miqdarı | Məbləği, min ABŞ dolları |
|---|---|---|
| Kartof, ton | 61,785.2 | 26,851.8 |
| Təzə tərəvəz, ton | 221,195.1 | 214,130.2 |
| Təzə meyvə, ton | 336,342.0 | 361,368.3 |
| Çay, ton | 1,506.0 | 9,510.3 |
| Bitki yağları, ton | 8,218.7 | 7,399.4 |
| Marqarin, qida üçün digər yararlı qarışıqlar, ton | 3,358.5 | 3,606.9 |
| Şəkər, ton | 62,068.4 | 26,880.1 |
| Makaron məmulatları, ton | 910.5 | 459.1 |
| Meyvə tərəvəz konservləri,ton | 6,927.8 | 9,190.3 |
| Meyvə tərəvəz şirələri, ton | 9,870.2 | 11,183.6 |
| Təbii üzüm şərabları və üzüm suslosu, min dkl. | 532.3 | 7339.9 |
| Tütün, ton | 6488.6 | 13,598.0 |
| Emal olunmuş qoyun və quzu dəriləri, min ədəd | 750.4 | 1,169.4 |
| Pambıq lifi, ton | 86,190.6 | 122,365.6 |
| Pambıq ipliyi, ton | 12,803.3 | 30,155.1 |

**Mənbə:** https://www.stat.gov.az/source/trade/ saytından alınan məlumatlar əsasında müəllif tərəfindən hazırlanmışdır.

Ölkəmizdə istehsal edilən meyvə şirələrinin xarici istehlakçıları çox çeşidlidir. Belə ki, bu məhsullar Ukrayna, Belarus, Polşa, Rusiya kimi Şərqi Avropa ölkələrinə, Baltikyanı ölkələrdən Estoniya və Litvaya, habelə ABŞ və Malayziyaya da ixrac edilir. Təbii üzüm şərablarının və üzüm suslosunun başlıca idxalçısı Rusiya və Çindir.

2019-cu ilin statistik məlumatlarına əsasən ölkəmizin ixracında aqrar sənaye məhsullarının ümumi həcmi 848917,6 ton olmuşdur, bununla da kənd təsərrüfatı məhsullarının ixracından büdcəyə daxilolmalar 845208 min ABŞ dolları həcmində olmuşdur.

Aqrar sənayenin məhsullarını, adətən, qonşu ölkə bazarlarına çıxarmaq mümkün olsa da, bəzi gec xarab olan məhsul qruplarını uzaq bazarlara da ixrac etmək

mümkündür. Bu sahədə dünya bazarındakı rəqabətə davam gətirəbiləcək məhsulların istehsalı, yerli brendlərin yaradılması ilə daha mürəkkəb bazarlara da çıxış imkanı əldə edə bilərik.

Bütün ölkələrdə əhalinin yüngül və yeyinti sənaye məhsullarına olan tələbatının ödənilməsi, özünütəminetmə səviyyəsinin yüksəldilməsi, idxal asılılığının aradan qaldırılması, ixracın təşviqi, ərzaq təminatına nail olunması  üçün kənd təsərrüfatı mallarının istehsalı sənayesinin inkişaf etdirilməsi qarşıda duran əsas vəzifələrdəndir. Statistika Komitəsinin məlumatları əsasında deyə bilərik ki, ölkəmizdə istehsalı mümkün olan bir sıra srtatejik aqrar məhsullar Rusiya və digər region ölkələrindən idxal edilir. Belə ki, ölkəmizin idxal etdiyi on əsas kənd təsərrüfatı məhsulunun ixracatçısı məhz Rusiyadır. Beləlikə, sözügedən mallara olan tələbatının təxminən 37-40%-i Rusiyanın ixracından asılıdır.  Habelə, tütün məhsullarının və siqaretin 50%-dən çox hissəsi, bərk buğda və çovdar məhsullarının yarısından çoxu Rusiya Federasiyasından idxal edilir. Ölkəmizdə Zaqatala-Balakən və Lənkəran-Astara iqtisadi rayonlarının iqlimi tütün və tütün məhsullarının inkişafı üçün əlverişlidir. İxrac potensiallı və stratejik məhsul hesab edilən tütünün istehsalının genişləndirilməsi idxalı əvəzləşdirməklə yanaşı ixrac imkanlarını da genişləndirəcəkdir (“Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi”, 6 dekabr 2016).

Ölkəmizdə süd emalı ilə məşğul olan istehsal müəssisələrinin sayının az olması və istehsal sənayesini təmin edəcək qədər təbii süd xammalının olmaması süd və süd məhsullarının da böyük həcmdə idxal edilməsilə nəticələnmişdir. Hazırda mövcud süd emalı müəssisələrinin fəaliyyət dairəsini genişləndirməklə, istehsal potensiallarını artırmaqla bu sahədə emalı canlandırmaq mümkündür. Eyni zamanda süd emalı sahəsinin xammal bazasının genişləndirilməsi  tələbolunandır. Təbii süd üzrə xammal potensialını artırmaq, bazarın tələblərinə və beynəlxalq standartlara uyğun keyfiyyətli məhsullar istehsalına nail olmaq xarici bazara çıxış imkanlarını da artıracaqdır

(“Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi”, 6 dekabr 2016).

2020-ci ildə ixrac edilən bitki və heyvan mənşəli yağların dəyəri 21 593.50 min ABŞ dolları olmuşdur ki, bunun da 50%-ə qədər hissəsi günəbaxan yağlarının payına düşür. Günəbaxan və zeytun yağlarının rəqabətqabiliyyətli və strateji məhsullar olduğunu nəzərə alsaq, bu sahədə istehsalın artırılması idxalı yüksək səviyyədə məhdudlaşdırmağa və ixracı təşviq etməyə imkan verəcəkdir.

Ölkəmizdə ən geniş istehsal edilən heyvandarlıq məhsulları qoyun, mal və toyuq ətidir. Qeyri-neft məhsulları arasında dəyər həcmi az olmasa da, yenə də yerli tələbatı ödəmir. Bu səbəbdən sözügedən məhsullar üzrə ixracın səviyyəsi çox aşağı olmaqla yanaşı, idxal asılılığı da mövcuddur. Heyvandarlıq məhsullarının ixracında əsas yeri konservləşdirilmiş və emal edilmiş məhsullar tutur. Ölkəmizdə heyvandarlıq məhsullarının istehsalı üzrə fəaliyyət göstərən müəssisələrdə emal imkanlarının artırılması, texnika texnologiya ilə təminat dərəcəsinin yaxşılaşdırılması, rentabelliliyinin yüksəldilməsi, dünya bazarının tələblərinə cavab verən istehsal standartlarının qəbulu bu sahədə istehsalı stimullaşdıracaqdır.

Göründüyü kimi, Azərbaycanın idxal məhsullarının həcmində əsas yer emal mallarına aiddir. Bu o deməkdir ki, aqrar münasibətlərin, iqlim və torpaq şəraitinin əlverişli olmasına baxmayaraq ölkəmizdə məhsulların emalı sənayesi zəif inkişaf etmişdir. Məhz bu səbəbdən dövlət proqramları emal sənayesinin stimullaşdırılması istiqamətində yollar təklif edir.

Aparılan təhlillər nəticəsində ölkəmizin ixrac potensiallı və idxal asılılığını azalda biləcək perspektivli məhsullarını aşağıdakı kimi qruplaşdıra bilərik:

- Dənli və paxlalı bitkilər- qarğıdalı, çovdar, buğda və sair
- Heyvandarlıq məhsullar - quş əti, süd və süd məhsulları, ət məhsulları
- Sənaye əhəmiyyətli məhsullar – çay, pambıq, tütün məhsulları, dərman bitkiləri, gön dəri, şəkər çuğunduru, barama, yun və sair.

Aqrar sənaye məhsulları üzrə ixracın təşviqi istiqamətində görüləcək işlərə aşağıdakıları sıralaya bilərik:

- İri heyvandarlıq müəssisələrinin və komplekslərin yaradılması üçün ferma modellərinin yaradılması
- İntensiv inkişafa nail olmaq üçün məhsuldarlıq göstəricilərinin yaxşılaşdırılması
- Heyvandarlığın ixrac potensiallı sahəyə çevrilməsini təmin edəcək keyfiyyətli məhsul istehsalı üçün süni mayalanmanın təşviqi və genişləndirilməsi
- Bir sıra regionlarda tətbiq edilən və müsbət effektləri müşahidə edilən pilot layihələrin digər perspektivli regionlarda da tətbiq edilməsi
- Aqrar sənayenin müxtəlif istiqamətlərində ailə-kəndli təsərrüfatlarının formalaşdırılması
- Kənd təsərrüfatı məhsullarının istehsalında mikro, kiçik və orta sahibkarlıq müəssisələrinin iştirakının stimullaşdırılması
- Emal sənayesinin inkişafına adekvat kənd təsərrüfatı xammalının yaradılması və sair.

## 2.2. Azərbaycanın ixrac etdiyi kənd təsərrüfatı məhsullarının daşınması üçün uyğun nəqliyyat növünün və daşınma metodunun seçilməsi

Yüngül və yeyinti məhsullarının daşınmasında istifadə edilən logistik vasitələrin və onlar hesabına daşınmaların həcmi cədvəldə öz əksini tapmışdır. Məhsulların tez xarab olan və uzun məsafəyə daşına bilən formaları vardır. Bu formalara müvafiq daşınma vasitələri də dəyişir. Yeyinti məhsullarının, xüsusilə də tez xarab olunan qida məhsullarının daşınması xüsusi təchiz edilmiş və dizayn edilmiş logistik vasitələrlə aparılmalıdır. Daşınmanı təmin edəcək konteynerlər və nəqliyyat vasitələrinin yük yerlərinin dizaynı daşınan məhsulların xarab olmadan, çirklənmədən, müxtəlif həşəratların və gəmiricilərin daxil olmasından qoruyacaq şəkildə olmalıdır. Logistik

vasitələrin yük yerlərinin daxili qida məhsulların keyfiyyətinə zərər vurmayacaq materiallardan hazırlanmalıdır. Meyvə və tərəvəzlərin, habelə meyvə şirələrinin daşınması xüsusi sisternlərlə, tankerlərlə vəya bükülü çənlərlə həyata keçirilir.

İstehsalçıların öz məhsullarını dünya bazarına çıxarması üç formada həyata keçirilə bilir (İbrahimov İ., 2016):

1. Birbaşa ixracla beynəlxalq bazarlara çıxmaq - Məhsulların son istehlakçıya çatıdırılması digər üsullara nisbətdə daha çox xərc tələb edir. Bu səbəbdən son istehlakçıların və hədəf bazarının müəyyən edilməsi əməliyyatlarını, adətən, orta və iri sahibkarlıq müəssisələri həyata keçirir. Bu formada ixracın üstünlüyü biznes müəssisəsinin marketinq əməliyyatlarına nəzarətin məhdudluğu ilə izah edilir.

2. Partnyorluğa əsaslanan ixrac forması - Bu modeldə ixracatçı müəssisə idxal əməliyyatları həyata keçirəcəyi ölkədə özünə tərəfdaş tapır. Belə olan halda idxalçı ölkədə ortaq müəssisənin yaradılması daha az məsrəflə başa gəlir. İdxalçı ölkənin bazarına daxil olmanın nisbtən asan başa gəlməsi, marketinq araşdırılmasının zəruri olmaması, xərclərin az olması bu modelin əsas üstünlükləridir. Çatışmayan cəhəti isə ixracatçıların xarici bazarlara nəzarət imkanlarının zəif olmasıdır.

3. Dolayı ixrac modeli – Bu modeldə ixracatçının xarici bazara çıxışı yalnız vasitəçilər hesabına mümkün olur. Belə olan halda ixracatçı müəssisə bazara birbaşa daxil olmur və məhsulları istehlakçılara özü təqdim etmir. Əlverişli cəhəti odur ki, ixracatçı firma bazar araşdırması və marketinq xərcləri etmədən məhsul satışını həata keçirə bilir. Çatışmayan cəhəti isə ixracatçının xarici bazarla tanış olmamasıdır.

Ölkəmizdə istehsal kənd təsərrüfatı məsullarının ixracında hər üç modeldən istifadə olunmaqdadır. Kiçik və orta sahibkarlıq müəssisələrin xarici bazarlara çıxışı, əsasən, partnyorluq münasibətləri əsasında baş tutur.

**Cədvəl 4: 2019-cu ildə ixrac edilən malların daşınma vasitələri və daşınmanın həcmi**

| İstiqamət və nəqliyyatın növü | Miqdarı (ton) |
|---|---|
| **İxrac:** | **19382253.25** |
| Dəniz nəqliyyatı | 125539.13 |
| Dəmir yolu nəqliyyatı | 888600.75 |
| Avtomobil nəqliyyatı | 589046.57 |
| Hava nəqliyyatı | 32631.79 |
| Poçt | 0.03 |
| Stasionar nəqletmə vasitələri | 17746381.83 |
| Özü hərəkət edən vasitələr | 53.15 |

**Mənbə:** https://customs.gov.az/modules/pdf/pdffolder/84/FILE_3D204C-EEAFFD-161D25-4E1991-083D16-3F7456.pdf

2019-cu ildə ixrac edilən malların 0.64%-i dəniz yolu ilə, 3.03%-i avtomobil nəqliyyatı ilə, 4,6%-i dəmir yolu ilə, 0.17%-i hava nəqliyyatı ilə daşınıb. Bu daşınmalarda kənd təsərrüfatı və aqrar sənaye məhsullarının payı ətraflı olaraq cədvəl 4-ün təhlilində verilmişdir.

Azərbaycanın kənd təsərrüfatı məhsullarının əsas ixrac bazarları meyvə və tərəvəz məhsulları üzrə Rusiya Federasiyası, şəkər ixracı üzrə Əfqanıstan, bitki mənşəli yağlar, habelə heyvan mənşəli yağ-piylərin ixracı üzrə İraq, Gürcüstan və sair təşkil edir. Rusiya və ixrac həyata keçirilən Şərqi Avropa ölkələri, habelə Baltikyanı ölkələrdə əhalinin artım sürətinin aşağı olması, Yaxın Şərq ölkələrində siyasi-iqtisadi təhlükəsizliyin təmin olunmaması kimi məsələlər gələcəkdə bu sektorlara ixracın dəyəri ilə proqnozlaşdırmanı çətinləşdirir. Növbəti illərdə valyuta kursunun dəyişməsi, dollarla edilən ödənişlərin milli valyutada daha baha olacağı üçün məzənnə dəyişmələrinin idxalda əyləc rolu oynayacağı proqnozlaşdırılır. İstənilən halda Azərbaycanın aqrar sənaye məhsullarının Rusiya bazarlarına çıxarılmasında manat-rubl məzənnəsinin necə dəyişəcəyi mühüm rol oynayır. 2015-2016-cı illərdə Azərbaycan manatı dollar qarşısında rubla nisbətdə daha çox dəyər itirdi. Bu da Azərbaycan məhsullarının Rusiya bazarında rəqabətqabiliyyətliliyinə müsbət təsir göstərdi. Bu vəziyyətin necə davam edəcəyi qeyri-müəyyəndir. Digər təsiredici amil son illərdə Rusiyanın xarici ticarət əlaqələrini siyasi alət kimi istifadə etməsidir. Buna misal

olaraq, 2014-cü ilin avqust ayından etibarən, Avropa Birliyi ölkələrindən ət, süd, meyvə və tərəvəz idxalına qoyulan qadağanı, daha sonra 2015-ci ilin noyabrın 21-dən türk meyvə-tərəvəz məhsullarının idxalına tətbiq edilən qadağaları göstərmək olar. Qadağanın tətbiqindən əvvəl Rusiyaya pomidor idxalının əsas hissəsi Türkiyə Cumhuriyyəti hesabına reallaşırdı, müvafiq qanunlardan sonra bu yeri ilk sırada Çin, ikinci sırada Azərbaycan tutmağa başladı. Aqrar sənaye məhsullarının idxalının 37%-nə qədər hissəsi Rusiyadan asılı olan ölkə kimi Azərbaycanın qarşısında iki əsas risk vardır (https://bakuresearchinstitute.org/az/analysis-of-main-problems-facing-azerbaijans-non-oil-exports/, 2018):

1. Türkiyə meyvə-tərəvəz məhsullarına qoyulan idxal qadağası aradan qalxdıqdan sonra kənd təsərrüfatı məhsullarımız Rusiya bazarında güclü rəqiblə qarşı-qarşıya qalacaq və böyük ehtimal ixracın həcmi daralacaqdır. Bu risk Avropa Birliyi ölkələri üçün tətbiq edilən qadağaya xitam verilməsi zamanı da yaranacaqdır.

2. Rusiyanın idxal siyasətlərinin hansı istiqamətdə dəyişəcəyini hesablamaq mümkün deyil. Hərhalda belə bir addımların yerli məhsullarımıza qarşı edilməyəcəyinə heç kim təminat vermir.

Bu təhlil və qiymətləndirmə kənd təsərrüfatı məhsullarının ixracında Rusiyadan asılılığın aradan qaldırılması məsələsinin aktuallığını ortaya çıxardı. Sözügedən problemlərin həlli üçün aşağıda sadalanan addımların atılması labüddür:

- İxracın məhsul qrupları üzrə şaxələndirilməsi
- İxracın coğrafi baxımdan diversifikasiyası
- İstehsal olunan aqrar sənaye məhsullarının beynəlxalq standartlara uyğunluq səviyyəsinin artırılması
- Xarici bazarların araşdırılması, potensial ixrac bazarlarının müəyyən edilməsi, yerli sahibkarlıq müəssisələrinin xarici bazara çıxış imkanlarının yaxşılaşdırılması və sair.

**Qrafik 2: 2019-cu ildə MDB ölkələrinə ixrac, faizlərlə**




**Mənbə:** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, (https://www.stat.gov.az/source/agriculture)/ Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq/ Azərbaycan və MDB

Region ölkələrinə, habelə Yaxın Şərq ölkələrinə məhsul ixracı, eyni zamanda, həmin ölkələrdəki iqtisadi təhlükəsizlik, iqtisadi sabitlik kimi meyarlardan da asılıdır. Üstəlik, region ölkələrinin kənd təsərrüfatı strukturları Azərbaycanla çox oxşardır. Bu səbəbdən də, bizim sözügedən ölkələrə çıxış imkanımız yalnız onların yerli təsərrüfatında istehsal edilə bilməyən məhsullarla məhdudlaşmaqdadır. Strateji Yol Xəritələrində ixracın diversifikasiyasının kənd təsərrüfatı məhsullarının istehsalını dəstəkləyən faktor kimi göstərilməsi mühüm bir addımdır. Qazaxıstanın Aktau şəhərindəki bir logistik mərkəzə və sair logistik yatırımların edilməsi bu məqsəd üçün istifadə edilən bəzi alətlərdir.

Avropa Birliyinə daxil olan ölkələrlə idxal-ixrac münasibətləri olduqca aşağı səviyyədədir. Avropa Birliyi ölkələrindən əsas idxal məhsulları sırasına canlı heyvanlar, süd və süd məhsulları, dərman preparatları və mineral sular aiddir. Bu ölkələrə ixracın həcmi idxala nisbətdə dəfələrlə aşağıdır. Əsas ixrac məhsulu isə fındıqdır (əsasən, Almaniya və İtaliyaya).

Ölkəmizin əsas ixrac bazarı Rusiya Federasiyasının kənd təsərrüfatı məhsulları bazarı olduğundan onunla ticarət əlaqələrinin genişləndirilməsi mühüm məsələ hesab

olunur. Azərbaycan 2014-cü ildə Rusiya, Belarusiya və Qazaxıstan tərəfindən yaradılan, 2015-ci ildə Ermənistan və Qırğızıstan ölkələrinin də qoşulduğu Avrasiya İqtisadi Birliyinə, təəssüf ki, üzv deyil. Lakin Azərbaycanın yeddi keçmiş sosialist ölkəsi ilə ikitərəfli ticarət əlaqələrinə malikdir: Maldova (26 may 1995-ci ildən etibarən), Türkmənistan (18.03.1996 tarixindən başlayaraq), Ukrayna (1995, 28 iyul), Rusiya (30 sentyabr 1992), Qazaxıstan (10 iyul, 1997), Özbəkistan (1996, 27 may), Gürcüstan (1996, 10 iyun), Tacikistan ( 2007, 13 iyul). Bu ölkələrə münasibətdə idxal ödənişsizdir, yalnız qanunvericiliyə əsasən Əlavə Dəyər Vergisi hesablanır. Ölkəmizin də həmin dövlətlərin bazarlarına sərbəst çıxış imkanı vardır (S. Berkum, 2017).

Keçmiş SSRİ ölkələri ilə ikitərəfli razılaşmalardan əlavə ticarət əlaqələrində tətbiq edilən tarif dərəcələri aşağıdakı kimidir:

Aqrar sənaye məhsullarının idxalı üçün –

- Toxum və damazlıq heyvanlarda gömrük rüsumu (0,5%) və ƏDV (http://c2b.customs.gov.az/tnved_public.aspx , 2020).
- istehlak üçün olan bütün kənd təsərrüfatı məhsullarında gömrük rüsumu (15%) və ƏDV (http://c2b.customs.gov.az/tnved_public.aspx, 2020).
- Toyuq əti (1 ABŞ dolları/ kq), yumurta (100 ABŞ dolları/ 1000 ədəd üçün) məhsulları üçün xüsusi idxal gömrük rüsumları, soğan (0,2 ABŞ dolları/ kq), fındıq (1,5 ABŞ solları/kq), pomidor (0,4 dollar/kq), xiyar və xiyar turşusu (0,4 dollar/kq), təzə alma-armud və xurma (0,3 dollar/kq), təzə üzüm (0,4 dollar/kq) (http://www.e-qanun.az/framework/33848, 2016).

Bu şəkildə yüksək dərəcəli idxal tariflərinin tətbiqində məqsəd yerli istehsalçıların qorunması, yəni proteksionist siyasətin aparılmasıdır.

Qoruyucu siyasət idxalın həcmini azaltmaqla yanaşı, yerli istehsalı stimullaşdırır, daxili tələbatı yerli istehsal hesabına təmin edir, ixracı genişləndirir.

**Şəkil 2: 2020-ci ilin yanvar-oktyabr aylarında qeyri-neft sektoru üzrə 5 əsas ixrac ölkəsi (2019-cu ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)**




**Mənbə:** Azərbacan Respublikasının İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi, "İxrac icmalı", noyabr 2020.

2019-cu ilin statistik məlumatlarına əsasən ölkəmizin ixracında aqrar sənaye məhsullarının ümumi həcmi 848917,6 ton olmuşdur, bununla da kənd təsərrüfatı məhsullarının ixracından büdcəyə daxilolmalar 845208 min ABŞ dolları həcmində olmuşdur.

Cədvəl üç ilin ixrac yükdaşımaların həcmini, daşınan yüklərin nəqliyyat növləri üzrə payını ifadə edir. Təhlildən aydın olur ki, ov məhsulları, diri heyvan və quşların daşınmasında ötən illər ərzində artım müşahidə edilmişdir. 2017-ci ilin göstəricilərilə müqayisədə avtomobil yolu ilə daşımaların həcmi 984 min ton artmış, dəmir yolu ilə daşımaların həcmi əvvəlcə 115 min ton azalmış, 2019-cu ildə isə 451 min ton artmışdır. Digər nəqliyyat növlərinə nisbətdə dəniz yolu ilə daşımaların həcmi daha aşağıdır.

Qida məhsulları, içkilər və tütün məhsullarının nəqlində əsas pay avtomobil nəqliyyatının payına düşür. Bu məhsullarının daşınması 2017-ci ildə 78% avtomobil, 14.3% dəmir yolu, 7.53% dəniz nəqliyyatı hesabına reallaşmışdır. Növbəti il üçün göstəricilər avtomobil nəqliyyatı üçün 80.5%, dəmir yolları üçün 12.9%, dəniz daşımaları üçün 6,6% təşkil etmişdir. Göründüyü kimi qida sənayesi məhsullarının daşınmasında avtomobil nəqliyyatı ən uyğun vasitə hesab olunur.

Logistika, daşınma dedikdə saxlama, qablaşdırma, gömrük rəsmiləşdirməsi, saxlama, qablaşdırma, fond idarəçiliyi, müştərilərə xidmət və sair sahələrdən ibarət mürəkkəb struktur başa düşülür.

Nəqliyyat- mal və məhsulların istehlakçıların ehtiyaclarına uyğun müvafiq yerlərə, bölgələrə daşınması prosesidir. Səviyyəsinə görə nəqliyyatın yerli və beynəlxalq olmaqla iki növü vardır. Həyata keçirilmə vasitəsindən asılı olaraq nəqliyyatın aşağıdakı formaları fərqləndirilir.

1. Su nəqliyyatı - Ağır yüklərin daşınması və uzaq ərazilərə mal və məhsulların çatdırılması üçün ən ucuz nəqliyyat formasıdır. Ölkələr və qitələrarası daşımaların səksən faizindən çoxu məhz su daşımaları hesabına həyata keçirilir. Dəniz yolu ilə daşımalarda əsas yeri kənd təsərrüfatı və qida məhsulları tutur. Bunlara nümunə olaraq buğda, düyü, hazır və yeyinti məhsulları sadalana bilər. Dəniz nəqliyyatı ilə daşınmanın çatışmayan cəhəti hava şəraitindən, coğrafi problemlərdən asılı olaraq çatırılma müddətinin uzun olması, göndərmə tezliyinin aşağı olması, yüklərin daşınması ilə bağlı sərt tələblərin irəli sürülməsi və sairdir. Üstünlüyü uzaq məsafələrə də az xərclə daşımanı təmin etməsidir.

2. Dəmir yolu nəqliyyatı- uzaq ərazilərə məhsulların daşınmasında əlverişlidir. Bu nəqliyyat formasından əsasən, vaxt məhdudiyyəti olmayan ağır məhsulların daşınması üçün istifadə edilir. Dəmir yolu nəqliyyatının üstünlüklərinə yükgötürmə qabiliyyətinin yüksək olması, istənilən növ yükün daşınma mümkünlüyü, eyni qatarda müxtəlif vaqonlarda fərqli məhsulların daşına bilməsi, həm ölkədaxilində, həm də ixrac üçün daşımalarda effektiv olması, avtomobil nəqliyyatı ilə müqayisədə daha təhlükəsiz olması, mövsümdən asılı olmayaraq yük daşımalarının mümkünlüyü və  sair aid edilə bilər. Bu nəqliyyatın çatışmayan xüsusiyyətləri “qapıdan-qapıya” və birbaşa daşımanın mümkün olmaması, dəmir yollarının avtomobil yollarına nisbətdə az inkişaf etməsi, yükləmə- boşaltma işlərinin çox zaman tələb etməsi, standart yol xəttinə tabe olması və sairdir.

3. Hava yolu nəqliyyatı- tez xarab olan, vaxt məhdudiyyətli, xüsusi təhlükəli və yüngül məhsulların daşınmasında istifadə edilir.

4. Avtomobil nəqliyyatı- ağır məhsulların qısa zaman ərzində, yaxın məsafələr daşınması üçün effektiv metoddur.

5. Boru kəmərləri hesabına malların nəqli- yanacaq ehtiyyatlarının daşınmasında istifadə edilir. Birbaşa daşıma və mərkəzləşdirilmiş daşıma olmaqla iki əsas forması vardır.

Dəmir yol nəqliyyatında daşınan məhsulların xarakteristikasından asılı olaraq müxtəlif növ vaqonlardan istifadə edilir. Məsələn, heyvanların, kağızların, quşların və sair daşınması üçün örtülü vaqonlardan, tez xarab olan qida məhsullarının, meyvə-tərəvəzlərin, ərzaqların, balıq və ət məshullarının daşınması üçün izotermik vaqonlardan, hava şəraitindən asılı olmayan malların daşınması üçün yarımvaqonlardan istifadə edilir. Süd, yağ və sair maye halındakı məhsulların daşınması isə sistern vaqonlar hesabına həyata keçirilir. Belə vaqonlarda arakəsmələr hazırlanır ki, bu da dalğalanmaların qarşısını almaq məqsədi güdür. Süd və süd məhsulları tez xarab olduğundan, sistern vaqonların daxili hissəsi əlvan metaldan hazırlanır və izolyasiya edilir.

Su yolu ilə qida məhsullarının daşınmasında bir sıra çətinliklər yarana bilir. Yeyinti sənayesi məhsullarının qısa zaman ərzində tərkibini dəyişə bilməsi, hava şəraitindən tez təsirlənməsi, yükləmə-boşaltma zamanı zədə alma ehtimalının yüksək olması, donmaya və günəş şüasına qarşı həssaslığı nəzərə alındıqda su nəqliyyatı qida məhsullarının daşınmasında riskli seçim hesab oluna bilər. Bu metodla daşınan kənd təsərrüfatı mallarına dənli bitkilər, tərəvəz məhsulları, pambıq, meyvə, heyvandarlıq məhsulları daxildir. Aqrar sənaye məhsullarının daşınmasında məhsulların bir sıra əlamətləri nəzərə alınır:

1. Fiziki əlamətlər – daşınacaq məhsulun maye və ya bərk halında olması, zədələnməyə meyilli olub-olmaması kimi mexaniki əlamətləri ehtiva edir.

2. Təcililik xüsusiyyəti – tez xarab olan və xüsusi təhlükəli məhsulların olub-olmamasının nəzərdə tutur.

Yeyinti məhsulları xüsusi sanitar - gigiyenik şərtlərə cavab verən vasitələrlə daşınmalıdır. Bu səbəbdən qida məhsullarını daşıyan nəqliyyat vasitələrinə sanitar pasport təqdim edilir.

### 2.3. İxrac edilən kənd təsərrüfatı məhsullarının uzun müddətli qalması üçün görülən tədbirlərin qiymətləndirilməsi amilləri

Ölkəmizin iqtisadiyyatı böyük ölçüdə mineral xammal resurslarından, neft-qaz məhsullarından asılı vəziyyətdədir. Bu üstünlük 2020-ci ilin ilk on bir ayında ümumi ixracda təqribən 87,5% təşkil edir. Ancaq dünya enerji bazarında neft və neft məhsullarının qiymətinin azalması, ölkəmizin neft ixracının böyük bir hissəsinin xam neft üzərindən edilməsi, habelə 2008-ci ildən başlayaraq iqtisadi böhranların bir-birini izləməsi, neft bazarında əsas söz sahibinin OPEK olması və onun dünya bazarındakı enerji məhsullarının qiymətinə təsir etmək gücündə olması danılmazdır. Cədvəlin təhlilindən aydındır ki, ərzaq məhsulları və kənd təsərrüfatı məhsullarının ixracdakı payı və bu sektordan gələn gəlirlər olduqca aşağıdır. 2016-cı ildə baş verən iqtisadi böhran və ardıcıl olaraq devalvasiyanın baş verməsi sübut etdi ki, idxalın əvəzləşdirilməsi, daxili tələbatın yerli istehsal hesabına təmin edilməsi, ərzaq təhlükəsizliyinə nail olunması üçün kənd təsərüfatı və əlaqəli bir sıra sahələrin inkişaf etdirilməsi labüddür (Aksoy U., və digərləri, 2018).

İxracın stimullaşdırılması yerli bazarda sahibkarlıq müəssisələrinin inkişafı, onların dəyər yaradılmasında rolundan birbaşa asılıdır. Aqrar sənaye məhsullarının istehsalı və emalı üzrə ixtisaslaşmış biznes müəssisələrinin qurulması, kiçik və orta sahibkarlığın bu sektordakı fəaliyyətinin genişləndirilməsi onların ixracdakı payını artıracaqdır. İlk növbədə dövlətlə özəl sektor arasındakı əməkdaşlıq münasibətlərinin nizamlanması tələbolunandır. Bu, üç istiqamətdə mexanizmlər hesabına baş verir:

maliyyələşdirmə, torpaq və infrastruktur ("Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi", 6 dekabr 2016).

Maliyyələşdirmə mexanizmləri ixrac potensiallı məhsul istehsalının genişləndirilməsi məqsədilə investisiya yatırımlarının edilməsi, layihələrin kompleks maliyyələşdirilməsini nəzərdə tutur. İstiqaməti üzrə maliyyə resurslarının bölünməsi üçün adekvat hüquqi bazanın yaradılması lazımdır. Yeni xarici bazarlara çıxış sektorun beynəlxalq keyfiyyət və qida təhlükəsizliyi standartlarına uyğunlaşma qabiliyyətindən asılıdır.

İnfrastrukturun növü, keyfiyyəti və dəyəri əkinçilik sektorunun rəqabət qabiliyyətliliyinə təsir edir, məhsulların treyder istehlakçıya sürətli nəqlini, məhsulun keyfiyyətli daşınmasını təmin edir. Son dövrlərdə yol şəbəkələrinə, nəqliyyat infrastrukturuna yatırılan investisiyalar Azərbaycanda kənd təsərrüfatı və qida sənayesi məhsullarının logistik səmərəliliyini artırmışdır. Bununla belə, kənd yerlərində, xüsusilə də, ucqar regionlarda nəqliyyat infrastrukturu pis vəziyyətdədir, nəqliyyat xidmətləri təminatçıları bu bölgələrdə daşınma üçün nisbətən çox haqq tələb edirlər. İxrac bazarlarına yüklərin daşınmasında ixtisaslaşmış yerli avtomobil parkı zəif inkişaf etmişdir, bu səbəbdən, ixracatçılar xarici ölkələrin nəqliyyat parklarından asılı vəziyyətdədir. Beləliklə, kənd təsərrüfatı və qida sənayesi məhsullarının logistikasında həm proqram təminatı (software), həm də inrfastruktur (hardware) sahəsinə investisiya yatırımlarına ehtiyac vardır. Atılan müsbət addımlardan biri Bakı-Tbilisi-Qars dəmir yolunun bir hissəsi kimi yeni magistral yolların fəaliyyətə başlamasıdır. Nəticədə Gürcüstana və Türkiyəyə məhsul daşınması üçün yeni alternativ yollar formalaşmışdır. Dəmir İpək Yolu (İron Silk Road) və ya Trans-Asiya Dəmiryolu (Trans Asian Railway) adlanan bu yol Avropa və Asiyanı əlaqələndirən yükdaşımada vahid dəmir yol layihəsi olacaqdır. Beynəlxalq əhəmiyyətli bu layihə dörd mühüm dəmir yolu marşrutundan ibarətdir. Ölkəmiz Cənubi Qafqaz və Orta Asiyanı Avropa ilə birləşdirən nəqliyyat dəhlizinə qoşulmaqla kənd təsərrüfatı və aqrar sənaye məhsullarının Avropa bazarlarına çıxarılmasında mühüm inkişafa nail ola bilər. Su və quru yolları kimi əsaslı strukturların

maliyyələşdirilməsində özəl sektorun nümayəndələri də iştirak edirlər. Buna misal olaraq Bakı ətrafında və Biləsuvar rayonu ərazisində yaradılan yüksək texnologiyalı tarla- tərəvəzçilik təsərrüfatlarını, istixanaları göstərə bilərik (Abbasova N., 2019).

Ölkəmizdə aqrar sənaye xammalının mübadiləsi üçün tələb olunan əməliyyat xərcləri yüksəkdir. Fiziki infrastrukturların zəif olması və ondan yaranan maddi-texniki xidmətlərin çatışmazlığı inkar edilməz faktdır. Kənd təsərrüfatı sənayesində istehsal münasibətləri əsasən kiçik strukturlarda aparıldığından ixracatçılar tələb olunan məhsul həcmini toplamaq üçün çoxlu sayda fermerlə əlaqə yaratmalı və müqavilə bağlamalı olurlar. Bu da satınalma xərclərinin yüksək olması ilə nəticələnir. Digər tərəfdən, kiçik fermerlər məhsulların keyfiyyət göstəricilərini yüksəldəcək texnika və texnologiyadan istifadəyə meyilli deyillər. Çünki bu, dar təsərrüfat münasibətləri üçün yüksək xərclər tələb edir. İstehsalın həcminin artırılması və aşağı dəyərli kənd təsərrüfatı məhsullarının istehsalı üçün innovativ metodların tətbiqinə ehtiyac vardır. Artan gəlirlərlə əlaqədar yüksək keyfiyyətli qida məhsullarına tələbatın artması, şəhərləşmə kimi faktorlar keyfiyyət standartları yüksək olan kənd təsərrüfatı mallarına olan tələbi də stimullaşdırır (Aksoy U., və digərləri, 2018).

Müstəqillik əldə etdikdən sonrakı dövrdə on beş ilə yaxın müddətdə ölkəmizin resurs gəlirləri dövlət büdcəsinin əsas hissəsini təşkil etdi. Təəssüflə qeyd etməliyik ki, əksər inkişaf etməmiş xammal ölkələrində olduğu kimi Azərbaycanda da xammal asılılıqlı iqtisadiyyat formalaşdı. Xarici iqtisadi ədəbiyyatlarda "resurs lənəti" kimi şərh edilən bu situasiya qısa zaman ərzində ölkəmizin iqtisadiyyatında mənfi nəticələrini verdi. Tədricən resurslara əsaslanan sahələrdən gələn gəlirlər büdcənin 70%-dən çoxunu təşkil etdi, xammal resurslarının ümumi ixracdakı payı isə 90%-i ötdü. Əsas istehsal sektorları mineral xammal əsaslı olduğundan Bakı və ətrafı aqlomerasiyalaşmağa başladı, yeni problemləri də özü ilə gətirdi. Bu səbəbdən, ixracın diversifikasiyalaşdırılması və aqrar sektorun istehsal imkanlarının regionlar arasındakı mövcud differensiyasının aradan qaldırılması olduqca önəmlidir. İnkar etmək olmaz ki, ölkəmizin ixrac problemlərinin bir hissəsi 70 illik planlı iqtisadiyyatın qalıqlarından

yaranıb, lakin hazırki dövrdə bu problemlər çeşidlidir. Son illər dünya bazarında vəziyyətin dəyişməsi, neft ixracından gələn gəlirlərin həcmindəki azalma, milli valyutanın dəyər itirməsi, pandemiya ilə əlaqədar beynəlxalq iqtisadi əlaqələrin məhdudlaşması aqrar sektora da təsirsiz ötüşmədi, kənd təsərrüfatı məhsullarının istehsalında və ixracında çeşidləməni və istehsal sahələri arasında şaxələnməni aktual etdi. Son iqtisadi hadisələrdən sonra ölkəmizin ixrac potensialında yaranan yeni istiqamətləri müəyyən etmək üçün ilk öncə ixrac problemlərini müəyyən edək (Aksoy U., Boz İ., Eynalov H., Quliyev Y., 2018):

- Zəif çeşidlənmə. Xarici ticarət əməliyyatları ilə bağlı statistikaya nəzər saldıqda, ilk baxışda kənd təsərrüfatı mallarının məhsul çeşidliliyi çox görünür. Lakin onların ümumi ixracdakı payı mövcud vəziyyəti sübut edir. 2020-ci ilin götəricilərinə əsasən ixracın 90%- ə qədər hissəsi təxminən 35 adda məhsulun payına düşür ki, bunların da bir hissəsi neft-qaz məhsullarıdır (şəkil 2). Başqa cür ifadə etsək, məhsul kateqoriyasının az bir hissəsi gəlirlərin böyük bir hissəsini təmin edir. Bu problemin aradan qaldırılması üçün kənd təsərrüfatı sahələrinin balanslı inkişafını təmin etmək, ixrac potensiallı məhsul istehsalına üstünlük vermək, istehsal edilən aqrar mal və məhsulların rəqabətqabiliyyətini artırmaq, regionların sahəvi inkişafına nail olmaq və sair lazımdır.
- Kənd təsərrüfatı məhsulları ixrac həcminin məhdudluğu. 2019-cu ildə aqrar sənaye məhsullarının ixrac həcmi 845208,0 min ABŞ dolları olmuşdur. Bu isə ümumi məhsul ixracının sadəcə 19,1% -ni təşkil edir. Düzdür, qeyd edilən göstəricilər 2017-ci ildə 1.538 milyard ABŞ dolları idi və ümumi ixracatın 11%-ə yaxın hissəsini təşkil edirdi. Dinamika artan istiqamətdə olsa da, göstəricilər yenə də ürəkaçan deyil. Neft asılılığını azaltmaq və qeyri-neft sektorunu inkişaf etdirmək istəyən bir ölkə üçün aqrar sənaye sektoru ən potensiallı sahlərdən biridir. Əhalimizin uzun illərdən bəri bu sahədəki əmək təcrübəsi, adekvat hal və davranışların olması, əsas ticarət yollarının ölkəmizdən keçməsi, iqlim və torpaq şəraitinin kənd təsərrüfatı üçün yararlı olması, bir

sıra perspektivli məhsulların istehsal imkanlarının geniş olması bizə bu sektorun ixracqabiliyyətli olmasını deməyə əsas verir.

- İxrac coğrafiyasının məhdudluğu. Kənd təsərrüfatı məhsullarının ixracının artırılmasını təkcə həcmin artırılmasından deyil, eyni zamanda ixrac coğrafiyasının şaxələndirilməsindən də asılıdır. Məhsulların ixrac edildiyi xarici bazarların diversifikasiyalaşdırılması yüksək perspektivli məsələlərdəndir. Ölkəmizdə istehsal edilən kənd təsərrüfatı məhsullarının əsas ixrac bazarlarını Rusiya, Türkiyə, MDB ölkələri təşkil edir. Son dövrlərdə bu istiqamətdə atılan addımlar və dövlət dəstəyi hesabına ABŞ, Cənubi Şərqi Asiya ölkələri, Yaxın Şərq ölkələri bazarlarına da çıxış imkanları əldə edilmişdir. Elə aqrar sənaye məhsulları var ki, onların böyük bir hissəsini yalnız bir və ya iki ölkə idxal edir. Məsələn, təzə pomidor məhsullarının 99%-ə qədərini yalnız Rusiya Federasiyası, yüksək ixrac potensiallı fındıq və qərzəkli meyvələrin 70%-dən çoxunu Rusiya və İtaliya, qızıl xammalının, demək olar ki, bütün hissəsini İsveçrə, xurmanın 90%-dən çoxunu Rusiya Federasiyası, elektrik enerjisinin isə 80%-dən çox hissəsini yalnızca Gürcüstan və Rusiya idxal edir. Bu fakt ixracın düzgün şaxələndirilməməsini aydın sübut edir. Məsələnin iqtisadi izahı ölkəmizin diversifikasiya riski daşımasıdır. Heç bir ölkə iqtisadi münasibətlərin necə olacağı ilə bağlı sığortalanmayıb, iqtisadi göstəricilər isə ölkəmizin məhsul ixracında əsasən Rusiya, Gürcüstan və İtaliyadan asılılığını göstərir. Belə olan halda, kənd təsərrüfatı məhsullarının ixracını həyata keçirən sahibkarlar, hüquqi və fiziki şəxslərin də diversifikasiya riskinin qurbanı olması ehtimallar arasındadır.

- Texnoloji sahədəki məhdudluq. Beynəlxalq iqtisadi təcrübədə mal və məhsullar texnolji mürəkkəbliyinə və səviyyəsinə görə yüksək, orta yüksək, orta aşağı, aşağı texnoloji səviyyələrdə təsnifləndirilirlər. Lakin Azərbaycanın ixrac məhsullarının böyük bir hissəsi aşağı və ya orta aşağı texnoloji səviyyədədir. Buraya neft-qaz məmumlatları belə daxildir. Aşağı texnoloji səviyyədə istehsalı həyata keçirilən məhsullar, əsasən, aqrar sənaye məhsullarıdır. Bunlara geyim məhsulları, içkilər də daxil olmaqla qida sənayesi məhsulları, toxuculuq sənayesi malları, dəri məmulatları,

tütün məhsulları, kağız məmulatları, mebel sənayesi məhsullarının emal prosedurlarına cəlb edilməyən hərcür xammal məhsulları daxildir. İxrac edilən kənd təsərrüfatı məhsullarının 50%-dən çoxu aşağı texnoloji səviyyədə istehsal olunan məhsullardır.

- İxracatçıların say məhdudluğu. İxrac gəlirləri kənd təsərrüfatı üzrə sahibkarlar arasında qeyri-bərabər paylanmışdır. Rəsmi məlumatlarda xarici ticarətdə yüzlərlə sahibkarlıq müəssisəsinin iştirak etdiyi görünsə də, ümumi ixracda əsas pay 15-20 müəssisənin üzərinə düşür.

İxracda əsas pay sahibi olan müəssisələr pambıq məhsulları istehsalı üzrə “MKT İSTEHSALAT KOMMERSIYA” MMC, tütün məhsullarının ixracı üzrə “AZƏRTÜTÜN AQRAR SƏNAYE KOMPLEKSİ” MMC, şəkər və yağ məhsulları ixracı üzrə “SUN FOOD” MMC və sairə çıxış edir. Bu sahibkarlıq müəssisələrinin kənd təsərrüfatı məhsullarının ixracındakı payı aşağıdakı cədvəldə əks etdirilmişdir (Cədvəl 5).

**Cədvəl 5: 2020-ci ilin yanvar-oktyabr aylarında qeyri-neft sektoru üzrə qeyri-dövlət ixracatçı subyektlərin reytinqi (Ötən ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)**

| İxrac subyekti | İxrac dəyəri (2019) | İxrac dəyəri (2020) |
|---|---|---|
| "MKT İSTEHSALAT KOMMERSİYA" MMC | 50,5 | 54,2 |
| "SUN FOOD" MMC | 25,5 | 27,0 |
| “GLOBAL TRADE GROUP" MMC | 2,5 | 28,7 |
| "FRUIT STORE" MMC | 0 | 24,5 |
| “AQROVEST” MMC | 13,3 | 20,5 |
| "FRUIT CITY GROUP" MMC | 0 | 20,1 |
| "AZƏRPAMBIQ AQRAR SƏNAYE KOMPLEKSİ" MMC | 18,6 | 23,6 |
| “AZƏRTÜTÜN AQRAR SƏNAYE KOMPLEKSİ” MMC | 1,3 | 2 |

**Mənbə:** Azərbacan Respublikasının İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi, “İxrac icmalı”, noyabr 2020.

2019-cu ildə Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin müxtəlif səviyyəli sahibkarlara istehsalın bir sıra sahəsi

üzrə "sərbəst satış sertifikatını" verməsi yeni xarici bazarlara çıxış imkanları yaratdı. Bu sahələrdən bir qismi də kənd təsərrüfatı məhsullarının ixracını əhatə edir. Belə ki, əksər ölkələr malların təhlükəsiz dövriyyəsini təmin etmək məqsədilə idxal edilən məhsullara sertifikat tələbi irəli sürürlər. Bu tələblər, adətən, kosmetika, gigiyenik vasitələr, qida, tekstil kimi birbaşa vücuda təmas edəbilən məhsullar üçün irəli sürülür. Sərbəst satış sertifikatı alan sahibkarlıq müəssisələri, şirkətlər artıq öz məhsullarını 100-dən çox xarici bazara çıxarmaq imkanı əldə etdilər. Bu ölkələr sırasına Filippin, İndoneziya, Çin kimi uzaq Asiya ölkələri, habelə ABŞ, Küveyt, Dominikan, Səudiyyə Ərəbistanı və sair aid edilə bilər. Ölkənin müvafiq orqanı sözügedən setifikatı verdiyi halda həmin şirkətin mal və məhsullarının ölkə daxilindəki sərbəst hərəkətini təstiqləmiş olur. Ölkəmizdə bu sertifikat bal və bal məhsullarının ixracı ilə məşğul olan "Ballı" brendi üzrə "Apiaz MMC", "ZIRA" brendi üzrə "Brightman MMC", "Aznar QSC", "Gazelli Group" şirkətlərinə verilir (https://iqtisadiislahat.org/news/azexport_portalinin_teqdim_etdiyi_serbest_satis_sertifikati_sahibkarlara_yeni_ixrac_imkanlari_qazandirib-651, 2021).

Sertifikatı əldə edən şirkət rəhbərləri bildirirlər ki, onlar öncəki dövrdə xaricdən gələn sifarişləri reallaşdırmaqda çətinlik çəkirdilər və bir sıra ixrac problemlərilə qarşılaşırdılar.

Ötən ilin ilk on bir ayı ərzində ümumilikdə qeyri-neft sektoru məhsulları ixracının dəyəri 1,4 milyard dollar olmuşdur. Təkcə oktyabr ayının ixrac dəyəri 162,8 milyon dollar təşkil etmişdir. Ötən ilin yanvar-oktyabr ayları ərzində kənd təsərrüfatı məhsullarının ixracında ilk yeri 173 milyon dollarlıq göstərici ilə pomidor və pomidor məhsulları tutur. İkinci yer isə 97,4 milyon dollar ilə pambıq mahlıcına aiddir. 2020-ci ilin ilk on ayında pambıq lifinin ixrac dəyəri 95,8 milyon, meyvə-tərəvəz məhsullarının ixrac dəyəri 467,3 milyon dollar, 13,6 milyon dollar pambıq ipliyi, 9,7 milyon spirtsiz və spirtli içkilər, 19,2 milyon dollar heyvan və bitki mənşəli yağlar, şəkərin ixracı isə 16,8 milyon dollar təşkil etmişdir.

Qloballaşan dünyamızda idarəetmədə yeni modellərin tətbiqi tələbolunandır. İxrac potensialının artırılmasında, ixrac əməliyyatlarının asanlaşdırılmasında yeni model kimi təklif edilən "Bir pəncərə" sisteminin rolu mühümdür. Ölkə Prezidentinin fərmanı ilə yaradılan "bir pəncərə" sistemi əməliyyatları online platformasına keçirməklə, şəffaflığın təmini, korrupsiyanın aradan qaldırılması, ixrac prosedurlarının sadələşdirilməsi və azaldılması, ixracatçıların lazımlı məlumatlara əlçatanlığının təmini istiqamətində mühüm üstünlüklər əldə edilməsinə səbəb olmuşdur. Təkcə 2020-ci ilin noyabr ayında "Bir pəncərə" sistemi üzərindən 16,7 milyon dollar həcmində ixrac həyata keçirilmişdir. İxrac edilən məhsul qruplarına həm hüquqi, həm də fiziki şxslər tərəfindən ixrac edilən albalı, nar, alma, boranı cemi, çay, nar şərabı, portağal şirəsi, kolbasa və sosiska məmulatları, günəbaxan və zeytun yağları, təbii zəli, müxtəlif növ mürəbbələr, biyan kökü, nərə balıqlarının kürüsü və əti, təbii bal, dondurulmuş Xəzər kilkəsi, pikellənmiş mal dərisi və sair aiddir. 2019-cu ilin həmin dövrü ilə müqayisədə ixrac statistikasına görə 4,5 milyon dollar həcmində artım müşahidə edilmişdir (http://milliarxiv.gov.az/az/bir-pencere-prinsipi, 2019).

Dünya bazarına məhsul ixracının artırılması üçün beynəlxalq bazarın düzgün araşdırılması, məhsuların beynəlxalq makretinq standartlarına uyğunlaşdırılması, qloballaşan dövrümüzdə ictimai, siyasi, iqtisadi, sosial yeniliklərin təqib edilməsi, ona müvafiq iş və ixrac prinsiplərinin qurulması, innovativ dəyişikliklərə adekvat fəaliyyətin göstərilməsi tələb olunur. İxracatçılar xarici bazarın öyrənilməsi və fəaliyyət istiqamətinin müəyyənləşdirilməsində aşağıdakı amillərə əsaslanmalıdırlar:

- Düzgün qiymət siyasətinin yeridilməsi
- Potensial istehlakçı qruplarının müəyyən edilməsi
- Aktiv və düzgün təşviqat-təbliğat siyasətinin aparılması və sair (Siemen van Berkum 2017).

Kənd təsərrüfatı məhsullarının ixracdakı payının artırılması aqrar sektorda istehsalın struktur inkişafının təmini ilə mümkün olacaqdır. Daxili tələbatın yerli istehsal hesabına ödənilməsinə və ərzaq təhlükəsizliyinin təmin edilməsinə nail

olunduqdan sonra xarici bazarlara mal və məhsulların çıxarılması daha adekvat həyata keçiriləcəkdir. İqtisadi rayonların kənd təsərrüfatında istehsal strukturunu müasir zamanın tələblərinə, texnika və texnologiyanın inkişafına uyğun qurulması mütləqdir. Bu istiqamətdə aparılacaq işlərə aşağıdakıları aid etmək olar:

- Rəqabətədavamlı məhsul istehsalına nail olunması üçün aqrar-sənaye komplekslərinin təkmilləşdirilməsi
- İstehsal resurslarının mövcud potensialından məqsədyönlü istifadənin təmin edilməsi və israfın qarşısının alınması üçün təkrar istehsalın genişləndirilməsi, ümumilikdə aqrar sektorun balanslı inkişafına nail olunması
- Müəssisələrdə, təsərrüfat obyektlərində fiziki və mənəvi aşınmaya məruz qalmış əsas fondların, texnika və texnologiyaların yenisi ilə əvəzlənməsi, texnoloji strukturun yaxşılaşdırılması
- İxrac potensialı yüksək olan, gəlirli və əməktutumlu kənd təsərrüfatı məhsullarının istehsalının artırılması
- Kənd təsərrüfatı bazarına daxil olan bütün sahələrdə infrastruktur yenidənqurmasının aparılması və sair.

# III FƏSİL. AZƏRBAYCANDA İXRAC OLUNAN KƏND TƏSƏRRÜFATI MƏHSULLARININ POTENSİAL SATIŞ ZONASININ İNKİŞAF PERSPEKTİVLƏRİ

## 3.1. Azərbaycanda kənd təsərrüfatı məhsullarının ixracında potensial satış zonasının yaradılmasının inkişaf perspektivləri

Ölkəmizin qeyri-neft sektorunun inkişafı ilə bağlı həyata keçirdiyi islahatlar fonunda aqrar sənaye sektoru güclü inkişaf tempi qazanmışdır. Kənd təsərrüfatının inkişafı ölkənin ərzaq təhlükəsizliyini təmin etməklə bərabər, regionlarda məşğulluq probleminin həllində də mühüm rol oynayır. Belə ki, ayrı-ayrı iqtisadi regionlarda yeni istehsal müəssisələrinin yaranması əhalinin işlə təminat səviyyəsini yüksəldir. Ölkədə ərzaq təhlükəsizliyi təmin edildikdən sonra aqrar sənaye sektoru yüksək ixrac potensiallı məhsul istehsalını həyata keçirən istehsal sahəsinə çevrilir. Azərbaycan Respublikasında ixracın stimullaşdırılması, dünya bazarında rəqabətədavamlı məhsul istehsalını genişləndirilməsi hesabına son illərdə xarici bazarlara satış imkanları artmışdır. Bu fakt həm kənd təsərrüfatı məhsullarının ixracı ilə məşğul olan müəssisələrin inkişafını, həm də ölkə iqtisadiyyatının idxal asılılığının zəifləməsini, dayanıqlı iqtisadi inkişafı, tədiyyə balansında müsbət dinamik inkişafı xarakterizə edir.

Əvvəlki fəsildə aparılan təhlillər göstərdi ki, kənd təsərrüfatı sənayesində məhsul istehsalı illər üzrə artım dinamikasına sahib olmuşdur və ixrac potensiallı aqrar məhsullar müxtəlif istiqamətdə dünya ölkələrinə ixrac edilir. Lakin əvvəlki illərlə müqayisədə aqrar məhsul ixracının həcmi nə qədər artsa da, idxalı üstələyə bilməmişdir. 2018-ci ilin göstəricilərinə görə bu məhsulların idxal həcmi ixracdan 2.5 dəfə artıq olmuşdur. Bu isə idxalın əvəzlənməsi məsələsinin hələ də aktual olduğunu diqqətə çatdırır.

Ölkə ərazisinin kənd təsərrüfatı sahələrinin inkişafı üçün yararlı olması, təbii şəraitin əlverişli olması ənənəvi aqrar sənaye məhsulları ilə yanaşı (tütünçülük, ipəkçilik, şərabçılıq, pambıqçılıq, meyvəçilik və sair), digər sahələrdə də istehsalın

inkişafına təkan verir. Son zamanlarda çiyələk, xurma (təzə və ya qurudulmuş halda), istixana pomidoru, nar, gilas və fındığın ixrac payında artım müşahidə edilir. Bu sahələrin inkişafının başlıca səbəbi maliyyə ehtiyyatları ilə təminat səviyyəsinin artırılmasındadır. Maliyyə resurslarının yüksək təminat səviyyəsi keyfiyyətli toxumların alınmasına və gətirilməsinə, lazımi texnika və texnologiyalardan istifadə imkanlarına, düzgün və keyfiyyətli gübrələnmənin aparılmasına təsir göstərir. Nəticədə kəmiyyət xarakterli istehsal artımı ilə yanaşı, keyfiyyət xarakterli rəqabətədavamlı məhsul istehsalına nail olunur.

Məlum olduğu kimi, ölkəmizdə istehsal edilən kənd təsərrüfatı məhsullarının əsas satış və ixrac bazarları MDB ölkələridir. Qloballaşan dövrümüzdə ənənəvi bazarlarla yanaşı Avropa bazarlarına, Körfəz ölkələri bazarlarına, Çin, Cənub-Şərqi Asiya ölkələri bazarlarına da çıxış imkanlarımız mövcuddur. Yerli tələbatdan artıq istehsal ixracı stimullaşdırsa da, əsas məsələ dünya bazarına çıxarılan məhsulların beynəlxalq standartlara nə qədər cavab verməsidir. İlk növbədə, əsas ixrac məhsulları üzrə “made in Azerbaijan” brendinin yaradılmasına nail olunmalıdır. Bildiyimiz kimi, Strateji Yol Xəritələri çərçivəsində belə bir brendin yaradılması ilə bağlı işlərin görülməsi nəzərdə tutulmuşdur.

Kənd təsərrüfatı məhsullarının ixracında beş əsas daşıma modelindən istifadə edilir. Bunlar yalnız bir nəqliyyat vasitəsilə həyata keçirilən unimodel, bir neçə nəqliyyat vasitəsindən istifadə etməklə, ancaq bir təşkilatçının məsuliyyəti altında həyata keçirilən daşıma prosesi olan multimodel, aralıq məntəqələr və başlanğıc nöqtəsi üzrə daşımalarla alıcıya məhsulun çatdırılmasını nəzərdə tutan intermodel, yükləmə və daşıma prosedurlarının ayrı-ayrı nəqliyyat vasitələrilə həyata keçirildiyi qarışıq model və iki və daha artıq nəqliyyat vasitəsinin daşıma əməliyyatına cəlb edildiyi kombinə olunmuş modeldir.

İxracın düzgün planlaşdırılması ixrac imkanlarının artırılmasını təmin edəcəkdir. Məsələn, kənd təsərrüfatı məhsullarının bir qismi vaxt baxımından uzun müddət saxlanıla bilmir və ya uzun məsafələrdə daşına bilmir, bir sıra kənd təsərüfatı məhsulları

isə müxtəlif ölkələrdə müxtəlif zamanlarda istehsal edilə bilir, mövsümi dövrü bitdikdən sonra əvvəlki kimi istehsal və ixrac edilə bilmir. Bu iqtisadi məsələlərin düzgün öyrənilməsi və qiymətləndirilməsi ixrac imkanlarını genişləndirəcəkdir. Sadə bir misalla izah edək, Körfəz ölkələrinin idxal etdiyi çiyələyin böyük bir hissəsini Misir təmin edir. Lakin aprel ayından etibarən iqlim şəraitilə əlaqədar Misirdə çiyələk ixracatı dayanır. Bu zaman Azərbaycan Körfəz ölkələrinə əsas çiyələk ixracatçısına çevrilmə imkanı əldə edir.

Coğrafi yaxınlıq amili ölkəmizin ixrac məhsullarının həm Yaxın Şərq və Körfəz ölkələrinə, həm də Avropa ölkələrinə daşınması məsələlərini asanlaşdırır. Son dövrlərdə bu bazarlara ixrac edilən əsas məhsul qrupları fındıq, istixana pomidoru, nar, xurma, gilas və çiyələkdir. Avropa bazarlarında sözügedən məhsullar üzrə rəqabət aparan ölkələr, ilk növbədə Türkiyə, daha sonra Cənubi Amerika, Şərqi Avropa və Yaxın Şərq ölkələridir. Türkiyə Cumhuriyyəti, həm də pomidor və pomidor məhsulları üzrə Rusiya bazarındakı ən güclü rəqibimiz hesab edilir. İxrac məhsullarımızda Rusiya bazarlarının payının yüksək səviyyədə olması, kənd təsərrüfatı sənayesində istehsalın və ixracın diversifikasiyalaşdırılma məsələsini bir daha aktual edir.

Hazırda, aqrar sənaye məhsullarının dünya bazarına çıxışını məhdudlaşdıran məsələlər logistik çətinliklər, istehsal şəraitinin və məhsulların beynəlxalq standartlara tam cavab verməməsi, məhsulların beynəlxalq arenada zəif tanınması, marketinqin zəif təşkili, zəif qablaşdırma və sairdir. Bu faktorlar məhsulların rəqabətqabiliyyətliliyini aşağı salır.

Kənd təsərrüfatı məhsulları istehsalçılarının və aqrar sənaye iştirakçılarının maliyyə əlçatanlığının təmin edilməsi, təkmilləşdirilməsi məqsədi ilə qəbul edilən “Azərbaycan İnvestisiya Mühiti və Aqrobiznesin Rəqabətliliyi Layihəsi”, məzmun etibarilə, qlobal rəqabətə davamlı məhsul istehsalının inkişaf etdirilməsini nəzərdə tutur. Layihə İsveçrənin İqtisadi Məsələlər üzrə Dövlət Katibliyi hesabına maliyyələşdirilir. Layihənin icrası və tətbiqi Beynəlxalq Maliyyə Korporasiyası

tərəfindən həyata keçiriləcəkdir. Nəticədə, yuxarıda qeyd edilən mövcud ixrac problemlərinin həllinə nail olunması gözlənilir.

2020-ci ilin əvvəlindən başlayan və qısa zaman ərzində qlobal xarakter daşıyan Covid-19 virusunun yayılması bütün digər ölkələr kimi Azərbaycan iqtisadiyyatına da təsirsiz ötüşmədi. Ölkənin istehsal sektorlarını və sahibkarlıq fəaliyyətini iflic edən məhdudlaşdırıcı qaydalar hesabına əksər iqtisadi göstəricilərdə geriləmə müşahidə edilmişdir. İxrac göstəriciləri də onların sırasındadır.

Digər tərəfdən 2020-ci ildə Azərbaycanın kənd təsərrüfatı sənayesində istehsal edilən alma və pomidor məhsullarında aşkar edilən zərərvericilər səbəbindən Rusiya tərəfindən həmin məhsulların ölkəyə idxalına məhdudiyyətlər qoyulmuşdur. Qoyulmuş qadağa bir həftə ərzində qismən yumşaldılsa da, hələ də qüvvədədir. Qeyd etmək lazımdır ki, Azərbaycan Rusiya bazarlarının pomidor tələbinin 30%-dən artıq hissəsini ödəyirdi. İndiyədək Rusiyanın müvafiq qurumları 82 müəssisənin ölkəyə pomidor idxalına icazə vermişdir. Bu müəssisələrin mövcud ixrac potensialının həcmi 240 min tona yaxındır, bu isə 2020-ci ildə Rusiyaya ixrac edilən pomidor məhsulunun həcmindən 31,6% çoxdur. Hazırda qadağaların aradan qaldırılması məqsədilə tədbirlər görülməkdədir. Qida Təhlükəsizliyi Agentliyinin məlumatlarına əsasən, videomonitorinqlər aparılaraq, məhsullardan götürülən nümunələr ekspertizaya cəlb edilərək işlər aparılır. 2021-ci ilin mart ayının 24-də daha səkkiz pomidor istehsal fabrikinin Rusiyaya məhsul ixracına rəsmi icazə verilmişdir. Bu müəssisələr – “ŞƏMS BOTANİKA” MMC, “BƏHRƏ-2010” MMC, “AGRICOLA” MMC, “AQROSTORM” MMC, “EKO-GROUP 2018” MMC, “YAŞIL RANÇO” MMC və Məhərrəm Heydər oğlu Əliyevə aid müəssisələrdir.

Qloballaşan dünyamızda tədricən ənənəvi istehsal sektorlarının belə yeni istiqamətləri formalaşır. Hazırda dünya bazarında ən perspektivli kənd təsərrüfatı məhsulları orqanik məhsullardır. Orqanik kənd təsərrüfatı məhsullarının istehsalı həm sağlam qidalanmanı təmin etdiyindən, həm də ekoloji cəhətdən daha səmərəli olduğundan müqayisəli üstünlüyə malikdir. Azərbaycan isə dünyanın ən böyük orqanik

məhsul istehsal potensialı olan 10 ölkəsi sırasındadır. Orqanik kənd təsərrüfatı aqrotexniki qurğulardan istifadəyə, pertisitlərdən, habelə kimyəvi gübrələrdən istifadəyə əsaslanaraq məhsul istehsal edən aqrosənayeyə qarşı daha təbii istehsalı nəzərdə tutan alternativ istehsal sektorudur. İqtisadi ədəbiyyatlarda onu “ekoloji təmiz”, “sağlam”, “orqanik”, “bioloji” kənd təsərrüfatı adlandırırlar. Bu tip məhsulların istehsalı zamanı pertisitlərdən, kimyəvi gübrələrdən, heyvandarlıqda əlavə yemlərdən, bitkilər üçün boy tənzimləyici dərmanlardan istifadə maksimum azaldılır və istisna edilir. Bitkilərin yetişdirilməsində, alaqlardan və ziyanvericilərdən təmizlənməsində, inkişaf etdirilməsində fermanın organik tullantılarından, heyvan peyinlərindən, təbii-fiziki gübrələrdən, bitki qalıqları, yəni yaşıl peyindən, əkin dövriyyəsinin dəyişdirilməsindən və sair təbii vasitələrdən istifadə edilir. Orqanik məhsulların istehsalı zamanı genetik və irradiasiya mühəndislik metodlarından, kanalizasiya şlamından və kimyəvi gübrələrdən istifadəyə yol verilmir. Orqanik kənd təsərrüfatı biomüxtəlifliyin qorunmasında, ekoloji balansın qorunub saxlanmasında, təkrar istehsalın təminində xüsusi rola malikdir.

Azərbaycanın güclü orqanik məhsul istehsal potensialı olmasına baxmayaraq, təəssüf ki, bu sektor üzrə inkişaf göstəricilərini müəyyən edəcək, istehsal, ixrac, marketinq, logistika məlumatlarını toplayacaq xüsusi dövlət qurumu yoxdur. Dünyanın 180-dən çox ölkəsində orqanik kənd təsərrüfatı istehsal sahəsi kimi mövcuddur, bu ölkələrdən 95-də orqanik istehsal sektorunun fəaliyyəti qanunvericiliklə tənzimlənir. Ekoloji təmiz kənd təsərrüfatına nail olunması üçün 2008-ci ildən dövlət tənzimlənməsinə başlanılmışdır. 2014-2016-cı illərdə orqanik kənd təsərrüfatının inkişaf istiqamətləri və prioritetləri müəyyən edilmiş və qarşıya qoyulan məqsədlərə çatmaq üçün aşağıdakı vəzifələr yerinə yetirilməsi labüd hesab edilmişdir:

- Sahibkarların orqanik kənd təsərrüfatına olan marağının artırılması məqsədilə maarifləndirmə və təbliği nəzərdə tutan sərgilərin, yarmarkaların təşkil edilməsi
- Digər ölkələrdə təşkil edilən müvafiq sərgilərdə, layihələrdə, proqramlarda yerli fermerlərin, sahibkarların, mütəxəssislərin iştirakını təmin etmək

- Orqanik məhsul istehsalı mövzusunda elmi jurnalların, kitabların və məqalələrin dərc edilməsi
- Orqanik kənd təsərrüfatı sektorunda çalışacaq ixtisaslı kadrların hazırlanması, bilik və bacarıqların artırılması üçün konfranların, seminarların təşkil edilməsi
- Sözügedən istehsal sektoru ilə bağlı əhali arasında maarifləndirmə aparılması

Bu sahənin inkişaf etdirilməsi ölkəmizin aqrar sənaye məhsulları üçün yeni xarici bazarların açılması deməkdir. Hazırda bir neçə yerli müəssisə vardır ki, orqanik məhsullar istehsal etməklə yanaşı həm də onları Avropa ölkələrinə ixrac edir. Bunlardan biri qeyri-hökümət təşkilatı olan Gəncə Aqrobiznes Assosiasiyasıdır (GABA). 2010-cu ildə Almaniyanın Nürnberq şəhərində Dünya Orqanik Ticarət Sərgisi təşkil edilmişdir. Bu sərgidə Azərbaycanı gavalı, əncir, zoğal, nar, xurma və heyva orqanik mürəbbələri ilə məhz GABA təmsil etmişdir. Bundan əlavə təşkilat yerli fermerlərə müvafiq mövzularda təlimlər təşkil edir və "Ekoloji kənd təsərrüfatı" jurnalını dərc etdirir.

Ölkəmizdə orqanik məhsul istehsal edən sahibkarlıq subyektləri istehsala, ilk növbədə, yabanı meyvə və giləmeyvələrin, qoz və fındığın, ətirli və müalicəvi bitkilərin yığılması və organik istehsalı ilə başladılar. İstehsalın başılca məqsədi məhsulları yerli bazarlarda deyil, xarici bazarlarda təqdim etmək idi. İndi isə məhsullar həm yerli, həm də xarici bazarlar üçün istehsal edilir və bu məhsullar sırasına yabanı giləmeyvə və meyvələrlə yanaşı, orqanik bal, buğda, zülallı və yağlı bitkilər, zeytun, mülayim və subtropik iqlim bitkiləri, habelə zeytun daxildir. Ümumi qiymətləndirməyə görə ölkəmizdə orqanik məhsul istehsalı hələ özünün keçid dövrünü yaşayır, ancaq az sayda müəssisə vardır ki, beynəlxalq standartlara uyğun orqanik kənd təsərrüfatı məhsulu istehsalı ilə məşğul olur və məhsulları sertifikatlaşdırılmışdır (Aksoy U., və digərləri, 2018).

Beynəlxalq təcrübə göstərir ki, ekoloji təmiz kənd təsərrüfatı məhsulları istehsalı qeyri-enerji sənayesində xüsusi paya malikdir və ölkəmizdə bu istiqamətdə təkmilləşdirmə işlərinin aparılması qeyri-neft sektoruna daxil olan alternativ, güclü istehsal və ixrac potensialı olan yeni bir sahənin formalaşmasına səbəb olacaqdır.

Orqanik məhsul istehsalında “made in Azerbaijan” brendinin yaradılması və beynəlxalq arenada tanınması digər istehsal sektorlarına nisbətdə daha asandır. Çünki ölkənin ərazisi, ənənəvi əkinçilik və heyvandarlıq vərdişləri və ənənələri, təbii-iqlim və torpaq şəraiti buna əlverişli şərait yaradır. Lakin Azərbaycanda ekoloji təmiz kənd təsərrüfatı məhsulları istehsalının və ixracının qarşısını alan bir sıra problemlər vardır:

1. Qanunvericilikdə sektor üzrə istehsal fəaliyyətini tənzimləyəcək bazanın zəif olması və boşluqlar
2. Kənd Təsərrüfatı Nazirliyinin prioritetləri arasında orqanik kənd təsərrüfatı istehsalının olmaması
3. Bu sahəyə subsidiyaların ayrılmaması. Doğrudur, subsidiyalar texniki, strateji kənd təsərrüfatı məhsullarına ayrılır, lakin nəzərə almaq lazımdır ki, orqanik məhsul istehsalı yaxın gələcəyin ən güclü sektorlarından biri olacaqdır və ölkəmizdə bu sahənin inkişafı üçün yetərincə potensial var.
4. İstehsalın yerli bazarları hədəf almaması və dövlətin bu sahənin inkişafına marağının nisbətən az olması. Orqanik məhsul istehsalçılarının, demək olar ki, hamısı özəl sektora mənsubdur.

Bütün dünyada orqanik məhsul yetişdirilmə potensialı olan torpaqların 0,05%-i ölkəmizin payına düşür. Bu hesablama Asiya qitəsi üzərindən aparıldıqda, göstərici 0,22% təşkil edir. Hazırda ölkəmizdə 300-dən çox orqanik məhsul istehsalçısı, 20-dən çox emal müəssisəsi mövcuddur. Bu müəssisələr günəbaxan toxumları, üzüm, quru və təzə xurma, zeytun, sitrus meyvələri, bal, akvakultura məhsulları, zülallı bitkilər, dənli bitkilər və sair kənd təsərrüfatı məhsullarının orqanik istehsalını həyata keçirirlər. Yerli bazarların böyük həcmdə orqanik istehsal edilən ət, yumurta, süd və süd məhsulları və digər heyvandarlıq məhsulları ilə təchiz edilməsinə ehtiyac var. İstehsal edilən mal və məhsulların həcminin böyük bir hissəsi ABŞ və Avropa İttifaqı ölkələrinə ixrac edilir. Ölkəmizin iribuynuzlu heyvandarlıq, arıçılıq, xırdabuynuzlu heyvandarlıq və quşçuluq sahələrində də orqanik istehsal imkanları və potensialı vardır. Bunun səbəbi heyvandarlıq üçün əlverişli bitki örtüyünün sənaye tullantıları ilə çirklənməyə məruz

qalmaması və kimyəvi vasitələrlə yetişdirilməməsidir. Azərbaycanda istehsal edilən heyvan mənşəli orqanik məhsulların dünya bazarıan çıxarılmamasının başlıca səbəbi sertifikatlaşdırılmanın aparılmamasıdır (Aksoy U., və digərləri, 2018).

Qeyd etdiyimiz kimi, Azərbaycanda orqanik məhsulların istehsal və ixracının böyük bir hissəsi özəl sektorun payına düşür. İlkin olaraq, şirkətlər orqanik meyvələrin ixracına cəhd etmişlər, daha sonra beynəlxalq standartlara uyğun istehsal avadanlıqlarının alınması, lazımi texnika ilə təminat hesabına meyvələrin emalına nail olunmuşdur. Bununla da, həmin şirkətlərin məhsul ixracına təzə meyvələrlə yanaşı, meyvə şirələri və konservləşdirilmiş digər məhsullar daxil oldu. Gəncə Aqrobiznes Assosiasiyasında sonra yaranan ikinci özəl şirkət Azərsun Holding olmuşdur. Bu şirkətin ixrac məhsullarına meyvə və tərəvəz məhsulları aiddir.

“World Food” və “ProdExpo” mükafatı almış Qəbələ Konserv Zavodu Gilan Holdingə məxsusdur və istehsal etdiyi məhsullarla yerli bazarı təmin etməklə yanaşı, bütün Qafqazın ən böyük konsentratlar, nektar və şirələrlə təminatçısıdır. Region ölkələrinə ixrac məhsulları təbii meyvə nektarı və şirələri, meyvə tərkibli buzlu çaylar, diabet xəstələri və pəhriz saxlayanlar üçün şirələr və sairdir.

Nar şirəsinin regiondakı əsas ixracatçısı isə MİRİ GRAND MMC-dir. İllik istehsal gücü üç milyon litrdən çox olan bu şirkət, həmçinin heyva, feyxoa, itburnu, zoğal və çaytikanı şirələrinin də istehsalını həyata keçirir. Şirkətin məhsulları Ukrayna, Estoniya, Rusiya Federasiyası, BƏƏ və Almaniya bazarlarına ixrac edilir. MİRİ GRAND MMC-nin istehsal etdiyi kənd təsərrüfatı məhsulları, yaxın gələcəkdə, Yaponiya, ABŞ, İran İslam Respublikası, Avstraliya və Türkiyə bazarlarına ixrac potensialındadır.

## 3.2. İxrac olunan kənd təsərrüfatı məhsullarının satış zonalarının yaradılmasına dövlət dəstəyi

Ölkəmizdə aqrar sahənin inkişafı istiqamətində tənzimləmə tədbirləri müstəqilliyin ilk illərindən etibarən müəyyən mərhələlərlə keçirilməyə başlanmışdır.

Tənzimləmə tədbirləri iki istiqamətdə; rayonların iqtisadi inkişafı proqramları daxilində və aqrar sahənin inkişaf proqramları daxilində aparılır. Kənd təsərrüfatı məhsullarının ixrac potensialının yüksəldilməsi və xarici bazarlara çıxışının təmin edilməsi üçün ilk növbədə yerli bazarın tələbatının tam ödənildiyindən və ərzaq təhlükəsizliyinin təmin edildiyindən əmin olmaq lazımdır. Məlumdur ki, qida, yüngül və yeyinti sənayesi məhsulları üzrə idxalın həcmi ixracla müqayisədə artıqdır, bu isə yerli istehsalın daxili bazarın ehtiyacını hələ tam ödəyə bilmədiyini göstərir. İxrac potensialının artırılması, yeni satış kanallarına keçid kənd təsərrüfatı məhsulları istehsalının artırılması, beynəlxalq standartlara uyğun istehsalın təmin edilməsi və yüksək rəqabətqabiliyyətli məhsul istehsalına nail olunması ilə mümkündür (Salahlı N., 2018).

Kənd təsərrüfatının inkişafı məsələlərin ehtiva edən müvafiq Strateji Yol Xəritəsi çərçivəsində aqrar məhsullar isehsalı ilə məşğul olanlara dövlət dəstəyinin göstərilməsi nəzərdə tutulmuşdur. Şəffaflığın artırılması və istehsal şərtlərinin yaxşılaşdırılması məqsədilə tədbirlər görülmüşdür. Sahənin inkişafına dövlət dəstəyini üç istiqamətdə şərh edə bilərik (Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi, 6 dekabr 2016):

1. Heyvandarlıq sahəsi üzrə

- süni mayalanma xidmətlərinin göstərilməsi üçün lazımi infrastrukturlar dövlət tərəfindən təmin edilir
- bu yolla alınan buzovların hər biri üçün yüz manat məbləğində subsidiya ayrılır
- kənd təsərrüfatı heyvanlarının, habelə quşların yoluxucu xəstəliklərə qarşı dərmanlanması və digər müalicə-profilaktik tədbirlər dövlət tərəfindən təşkil edilir
- əgər cins heyvanlar “Aqrolizing” ASC ilə idxal edilibsə, onların dəyərinin yarısı büdcə hesabına ödənilir, satışı da lizing vasitəsilə edilir.

2. Bitkiçilik sahəsi üzrə

- aqrar fəaliyyətlə məşğul olanlar üçün suvarma suyunun qiyməti min kub metr üçün əlli qəpik müəyyən edilmişdir
- tinglər və toxum istehsalına görə subsidiyalar nəzərdə tutulmuşdur
- biohumusun, pestisidlərin və gübrələrin dəyərinin 70% -i dövlət büdcəsi hesabına ödənilir
- əkin sahələrinin hektara 50 manat məbləğində subsidiya ayrılmışdır, burada məqsəd kənd təsərrüfatı istehsalçılarının istifadə etdiyi yanacağın bir hissəsinin dövlət yardımı ilə ödənilməsini təmin etməkdir
- Müasir suvarma və meliorasiya məqsədli avadanlıqların dəyərinin 40%-i, “Aqrolizinq” ASC tərəfindən alındığı təqdirdə, dövlət büdcəsi hesabına ödənilir
- Kənd təsərrüfatı bitkilərinin zərərvericilərlə mübarizə tədbirlərinin dövlət tərəfindən təmin edilməsi

3. Ümumi dövlət dəstəyi

- Kənd təsərrüfatı məhsullarının istehsalı üçün tələb olunan maşın və avadanlıqlar “Aqrolizing” ASC tərəfindən idxal edildikdə, ümumi dəyərin 40%-i dövlət hesabına qarşılanır
- Bu istehsal sahəsi vergilərdən azad edilmişdir
- Aqrar məhsulların emalı, istehsalı üçün tələb olunan istehsal vasitələri idxalı gömrük rüsumlarından azad edilmişdir
- Müvafiq məhsul istehsalçılarına güzəştli kreditlərin ayrılması

İstehsalın və milli iqtisadiyyatın sahələr üzrə diversifikasiyasına nail olmaq, kənd yerlərində istehsalın keyfiyyətini yaxşılaşdırmaq üçün beynəlxalq təcrübənin öyrənilməsi və ölkəmizdə tətbiq imkanlarının təkmilləşdirilməsi labüddür. Sosial-iqtisadi inkişaf fonunda enerji gəlirlərinə alternativ gəlir sahələrinin yaradılmasına çalışılır. Uzun müddətdir ki, ölkəmizdə aqrar sahənin tənzimlənməsi və dövlət dəstəyi tədbirləri regionaların inkişaf proqramları çərçivəsində həyata keçirilirdi. Artıq kənd yerlərinin inkişafına yeni yanaşmalara, konsepsiyalara ehtiyac var. İxracın

diversifikasiyasına gedən yol, kənd təsərrüfatı məhsullarının istehsal sahələrinin müxtəlifliyindən keçir. Bəs hazırda ölkəmizin aqrar sektorunda nə kimi inkişaf imkanları, məhdudiyyətləri var? Bunun üçün sektorun inkişafının GZİT analizinə ehtiyac var (Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi, 6 dekabr 2016):

**Güclü tərəflər**

- Mövcud su, iqlim, torpaq, hava, iqlim resurslarının sahənin inkişafı üçün əlverişli olması
- Ölkədə bazar iqtisadiyyatının tələblərinə uyğun aqrar siyasətin yeridilməsi
- Əhalinin uzun zaman ərzində formalaşmış təsərrüfatçılıq ənənələrinin olması
- Aqrar sənayenin inkişafına güclü dövlət dəstəyi
- Ölkənin kənd təsərrüfatı məhsulları ilə özünütəminat səviyyəsinin yüksək olması
- Müasir texnika və texnalogiyalarla təmin edilmiş istehsal və emal müəssisələrinin yaradılması
- İllər üzrə kənd təsərrüfatı məhsullarının ixrac həcmində artım dinamikasının olması
- Aqrar sənaye sahələrində məhsul istehsal edən fiziki və hüquqi şəxslərin istehsal vasitələri ilə təminatına dövlət dəstəyi
- Bitkiçilikdə və heyvandarlıqda ekstensiv inkişafdan intensiv inkişafa keçidi təmin etmək üçün dövlət dəstəyi mexanizminin formalaşması
- Beynəlxalq bazarlara çıxış imkanlarının geniş olması
- Dünya təcrübəsi əsasında qurulmuş aqrobiznes müəssisələrinin yaradılması və sair

**Zəif tərəflər**

- Aqrar sığorta və maliyyə resurslarından istifadə imkanlarının zəif olması

- Görülən tədbirlərə baxmayaraq, hələ də ekstensiv inkişafın üstünlük təşkil etməsi və məhsuldarlığın aşağı olması
- Ailə-kəndli təsərrüfatların ümumi həcmdə pay üstünlüyü və bu tip təsərrüfatların bazaryönlülüyünün aşağı olması, əsasən, fərdi istehlakı nəzərdə tutması
- Aqrar və sənaye sektorları arasında inteqrasiyanın, fermerlər arasında əməkdaşlıq münasibətlərinin zəif olması
- Suvarma ilə bağlı infrastruktur və təminat problemlərinin olması
- Fermerlərin müasir kənd təsərrüfatı istehsal sahələri, istehsal vasitələri ilə bağlı az məlumatlı olması
- Kənd təsərrüfatında dayanıqlı inkişafın zəif təmin edilməsi
- İstehsal şəraitinin, qida təhlükəsizliyinin, keyfiyyətin idarəedilmə məsələlərinin beynəlxalq standartlara cavab verməməsi
- Kənd təsərrüfatı istehsalının problemlərini tədqiq edən elmi araşdırmaların praktikada tətbiq imkanlarının zəif olması
- İxracı məhdudlaşdıran logistik çatışmazlıqların olması

**İmkanlar**

- Əksər aqrar sənaye məhsullarının istehsalında müqayisəli üstünlüyün olması
- İxracın təşviq edilməsi məqsədilə dövlət tənzimləmə siyasətinin formalaşması
- Coğrafi baxımdan sərfəli ixrac bazarlarına yaxın yerləşməsi, Avropa, Körfəz ölkələri, Yaxın Şərq ölkələri, Rusiya bazarlarına çıxış imkanının olması
- Məhsul istehsalında maya dəyərini aşağı salacaq ucuz işçi qüvvəsinin olması
- Rəqabətqabiliyyətli məhsul istehsalını təşviq edəcək tədbirlərin görülməsi
- Kənd təsərrüfatının inkişaf etdirilməsi hesabına ixrac məhsullarında qeyri-neft məhsullarının və hazır məhsulun payı artacaq
- Ekoloji cəhətdən təmiz və orqanik məhsullar istehsalı üçün əlverişli şəraitin, imkanların olması

- 2015-ci ildən etibarən qlobal səviyyədə yaşanan böhranların ölkəmizin iqtisadiyyatına ciddi zərər vurmaması və manatın dollar qarşısında devalvasiyası nəticəsində ölkə ədaxilində istehsal edilən məhsulun daha ucuza başa gəlməsi, bununla da, ixracın stimullaşması
- Çoxfunksiyalı kənd təsərrüfatı sistemini formalaşdırma imkanlarının olması

**Təhlükələr**

- Əkinəyararlı torpaqların tədricən deqradasiyaya uğraması, düzgün olmayan suvarma nəticəsində torpaqların səhralaşması
- İxrac bazarlarının şaxələndirilməsi imkanlarının məhdud olması
- Kənd təsərrüfatı məhsulları üzrə daxili bazarda haqsız rəqabətin olması. Bunun səbəbi digər ölkələrin dempinq etdiyi mal və məhsulların ölkəyə gətirilməsidir.

Rəqabətqabiliyyətli kənd təsərrüfatı sənayesinin qurulması "miqyas iqtisadiyyatı"-dan istifadə imkanlarını da genişləndirəcək. Ölkəmizdə aqrar məhsul istehsalının həcminin böyük bir hissəsinin ailə-kəndli təsərrüfatlarının payına düşdüyünü nəzərə alaraq qeyd etməliyik ki, bu tip təsərrüfatların orta ölçüsünün artırılması istiqamətində də islahatların aparılmasına ehtiyac var. Nəticədə, yerli bazarda daha güclü struktura malik istehsal subyektləri formalaşacaq və onların dünya bazarına çıxış imkanları daha çoxdur. Sənaye və aqrobiznes sahələrində aparılan islahatlar, müəyyən edilən prioritetlər üzrə görülən işlər, kənd təsərrüfatının transformasiyası ailə təsərrüfatlarının fəaliyyətini də canlandıracaqdır. Müvafiq Strateji Yol Xəritəsində qeyd edilir ki, 2025-ci illədək ölkəmizdə müqavilə fermerliyi sistemi və korporativlər təşkil ediləcəkdir. Buna nail olunduğu təqdirdə, fermerlərin bu sektorda həyata keçirilən islahatlarda, assosiasiyalarda yaxından iştirakı təmin ediləcəkdir. Dövlət tənzimləməsinin qarşısında duran üç əsas məsələ kənd təsərrüfatı istehsalçılarının istehsal vasitələrinə, maliyyə resurslarına və xarici bazarlara çıxış imkanlarının yaxşılaşdırılmasıdır. Bunlar, həmçinin dövlət dəstəyini labüd edən ilkin faktorlar kimi xarakterizə edilir. Proqram çərçivəsində görüləcək işlər aqrobiznesin

inkişafını, sahənin investisiya cəlbediciliyinin artımını, toxum və gübrə bazarına çıxış imkanlarının artımını, maliyyə resurslarının əlçatanlılığını, kiçik fermerlərin yerli bazarlardakı mövqeyinin möhkəmlənməsini və sair təmin edəcəkdir. Ölkəmizdə kənd təsərrüfatı sənayesinin uzunmüddətli dövrdə dayanıqlı inkişafının və kənd təsərrüfatının əsas ixrac sektorlarından birinə çevrilməsini təmin etmək üçün aşağıdakı dövlət tənzimləmə tədbirlərinin görülməsi müsbət effekt verəcəkdir (Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi, Azərbaycan İqtisadi İslahatlar İcmalı: avqust, 2017):

- Kənd təsərrüfatı sahəsində tədqiqatların, araşdırmaların aparılması, maarifləndirmə və innovasiya işlərinin görülməsi
- Qabaqcıl metodların tətbiqilə qida təhlükəsizliyi sisteminin müasirləşdirilməsi
- Beynəlxalq standartlara cavab verən akkreditasiyalı laboratoriyaların fəaliyyətinin təşkili
- Ölkədə daxili tələbatı ödəmə qabiliyyətli cins mal-qara və toxum bazarının yaradılması
- Tədricən dövlət dəstəyindən asılılığı minimuma enmiş olan istehsal strukturlarının formalaşdırılması və sair.

Qeyri-neft sektoruna daxil olan yüksək potensiallı sahələrdən biri də nar istehsal sahəsidir. İxrac imkanları geniş olan nar və nar məhsulları istehsalı aqrar sahənin ən perspektivli sahələrindən biri hesab edilir. Ötən il ökəmizdə 182 min tondan çox nar məhsulları istehsal edilmişdir ki, bunun da təxminən 11%-lik hissəsi ixrac edilmişdir. Narın meyvə şəklində və şirə formasındakı ixracının dəyəri 49 milyon ABŞ dolları olmuşdur. Hazırda nar istehsalının artırılması və nar bağlarının sahəsinin artırılması prioritet məsələlərdən hesab edilir. Ölkəmizdə istehsal edilən nar və nar məshullarının əsas ixrac bazarı Ukrayna və Rusiya Federasiyası başda olmaqla, Şərqi Avropa ölkələri bazarlarıdır. 2020-ci ildə əvvəlki illə müqayisədə nar ixracında artım dinamikası müşahidə edilmişdir. İxarc bazarlarında nara olan tələbin artmasını koronavirus pandemiyası ilə izah edə bilərik. Belə ki, nar tərkibində olan xüsusi antitoksid maddələr

hesabına virusla mübarizədə effektiv təsirə malikdir. Lakin nar ixracı məsələlərində istehsalçılar bir sıra problemlərlə üzləşirlər. Bu problemlər maliyyə, satış, marketing və logistika sahələrində daha çox nəzərə çarpır. Məhsullarımızın Şərqi Avropa ilə yanaşı, Qərbi və Orta Avropa ölkələrinə ixrac imkanları böyükdür. Son illərdə hədəf bazarlar sırasına BƏƏ və Küveyt başda olmaqla Körfəz ölkələri də daxil edilmişdir. Ancaq hazırki vəziyyət buna imkan vermir. Körfəz ölkələrinin nar məhsullarına olan tələbatını böyük bir hissəsi Hindistandan idxal hesabına ödənilir. Azərbaycan narının bu bazarlara çıxarılması həm maya dəyərinin yüksək olması, həm də logistik çətinliklər səbəbindən, hələ ki, sərfəli deyil. Deqradasiyaya uğramış torpaqlarda əkinlə bağlı birdəfəlik 5 min manat məbləğində subsidiyanın ayrılması ölkəmizdə nar istehsalını təşviq etmişdir. Fermerlərin və istehsalçıların sahəyə marağının artırılması və maliyyə əlçatanlığının təmini istiqamətində dəstəkləyici tədbirlərin görülməsi labüd hesab edilir (http://akia.gov.az/az/media, 2020).

Rəşadətli ordumuz və Ali Baş Komandanımız İlham Əliyevin başçılığı ilə 44 günlük müharibədən sonra qazanılan haqlı zəfər mənəvi yönlərilə yanaşı, qarşımızda yeni iqtisadi imkanlar açmışdır. Dağlıq Qarabağ regionunun kənd təsərrüfatı potensialı hamımıza məlumdur. İşğaldan azad edilmiş ərazilərin yenidənqurulması ölkəmizin kənd təsərrüfatı sənayesinin yeni inkişaf mərhələsinə daxil olmasına səbəbiyyət verəcəkdir. İlk növbədə ərazinin sıradan çıxmış torpaqlarının bərpası, meliorasiya və irriqasiya işləri aparılmalı, torpaqlar əkinəyararlı hala gətirilməlidir. İşğaldan öncəki dövrdə ölkəmizdə istehsal edilən xırdabuynuzlu mal-qaranın 19,3%-i, iribuynuzluların isə 15%-i Dağlıq Qarabağın payıan düşürdü. Xırdabuynuzlu heyvandarlığın inkişafı üçün əlverişli torpaq və iqlim şəraiti Laçın, Kəlbəcər, Cəbrayıl, Ağdam və Füzulidə, iribuynuzlu mal-qara istehsalının inkişaf etdirilməsi üçün Ağdam, Laçın və Füzuli rayonlarında mövcuddur. Bitkiçilik məhsullarının istehsal imkanları da olduqca genişdir. Aqrar sənayenin inkişafı üçün əlverişli şərait aşağıdakı istehsal sahələri üzrə prioritet istiqamətləri müəyyənləşdirməyə imkan verir:

1. Zəngilan rayonunda - üzümçülük, baramaçılıq, tütünçülük, arıçılıq, taxılçılıq

2. Füzuli rayonunda – qoyunçuluq, taxılçılıq, bitkiçilik
3. Kəlbəcər rayonunda – kartofçuluq, meyvəçilik və tərəvəzçilik
4. Xocalıda – üzümçülük, kartofçuluq
5. Cəbrayıl rayonunda – üzümçülük, baramaçılıq
6. Ağdam rayonunda – pambıqçılıq və taxılçılıq
7. Qubdalı rayonunda – baramaçılıq, üzümçülük, taxılçılıq və arıçılıq
8. Şuşada – meyvəçilik və quşçuluq
9. Laçın rayonunda – taxılçılıq, bağçılıq və tərəvəzçilik
10. Xocavənd rayonunda – quşçuluq, üzümçülük, tərəvəzçilik, bostançılıq və taxılçılıq

Əlbəttə, bu ərazilərin mövcud ehtiyyatları və istehsal potensialları ilə bağlı fikirlər, hələ ki, ehtimal xarakterlidir. Əlimizdə olan məlumatlar isə işğaldan əvvəlki dövrə aiddir. Post-konflikt dövründə azad edilmiş torpaqlarda iqtisadi fəaliyyətin bərpası üçün, ilk növbədə, mövcud potensialın adekvat qiymətləndirilməsinə ehtiyac var. Dağlıq Qarabağ iqtisadi regionunun restrukturuzasiyası qeyri-neft sektorunda yeni istiqamətlərin və alternativlərin yaranması deməkdir. Bu regionun coğrafi mövqeyi, xarici bazarlara yaxınlığı milli iqtisadiyyatın ixrac potensialını artıracaqdır. Burada qurulacaq sənaye qovşaqları ölkəmizin digər region ölkələrilə istehsal və sənaye əhəmiyyətli iqtisadi əməkdaşlığında mühüm rol oynaya bilər. Əlverişli coğrafi mövqe regionda istehsal edilən məhsulların daha az logistik xərclər və daha az zaman itkisi ilə ixracına imkan verəcəkdir.

## NƏTİCƏ VƏ TƏKLİFLƏR

Dissertasiya işinin yazılmasında kənd təsərrüfatı məhsullarının istehsal imkanları, kənd təsərrüfatı istehsalçılarının mövcud problemləri tədqiq edilmişdir. Ətraflı tədqiqat aparmaq məqsədilə, ilk növbədə mövzunun nəzəri-metodoloji əsasları təhlil edilmişdir. Tədqiqatın sonrakı mərhələsində Azərbaycan iqtisadiyyatında kənd təsərrüfatı məhsullarının ixrac göstəriciləri, beynəlxalq arenada aqrar məhsullarımızın mövqeyi, dünya kənd təsərrüfatı bazarında potensial satış zonaları araşdırılmışdır.

Qlobal səviyyədə baş verən maliyyə böhranlarından sonra iqtisadi inkişafda yeni mərhələyə qədəm qoyan Azərbaycan iqtisadiyyatı üçün kənd təsərüatı sahələrinin yenidən qurulması aktual məsələlərdən biri kimi qarşımızda dururdu. Qeyri-neft sektorunun ixrac payının artırılması istiqamətində görülən işlər onu deməyə əsas verir ki, kənd təsərrüfatı məhsulları istehsalı alternativ sahələr sırasındadır. Digər tərəfdən, ölkəmizdə istehsal edilən aqrar sənaye məhsullarının spesifikliyi bu məhsulları ölkə brendi kimi ixrac etməyə imkan verir. Lakin araşdırmalar nəticəsində kənd təsərrüfatı məhsullarının ixracı məsələsində, hələ də ir sıra problemlərin olduğunu gördük. İstər heyvandarlıqda, istərsə də bitkişilik məhsullarının istehsalının ayrı-ayrı ailə-kəndli təsərrüfatıları tərəfindən həyata keçirilməsi, iri fermer təsərrüfat modullarının olmaması sözügedən məhsul qruplarının istehsal həcminin azolmasına səbəbiyyət verir. İstehsalın yetərli olmaması daxili bazarın tələbatının ödənilməsində və ixracda problemlər yaradır. Digər tərəfdən, logistik problemlər hələ də aktualdır. Ölkəmizin kənd təsərüfatı məhsullarının xairici bazarlara çıxarılması üçün daşımaların böyük bir hissəsi rus və  türk kargo şirkətləri vasitəsilə həyata keçrilir. Bu isə yerli istehsalçıların işini çətinləşdirir. İxrac edilən məhsul qruplarının yarısından çoxunun bəlli bir neçə bazara yönəlməsi ciddi problemlərdəndir. Tədricən ixrac asılılığının yaranması qaçınılmazdır. Bunun üçün dövlət səviyyəsində işlər görülməli, ixrac imkanları genişləndirilməli, yeni xarici bazarlar araşdırılmalı, potensial ixrac-satış bazarları ola

biləcək ölkələrə missiyalar təşkil edilməli və yerli məhsulların beynəlxalq səviyyəli sərgilərdə nümayişinə nail olunmlıdır.

Hazırda ölkəmizin kənd təsərüfatı məhsullarının xarici bazarlara çıxışını məhdudlaşdıran səbəblər ixracatçıların say məhdudluğu, ümumi ixrac həcminin böyük bir hissəsinin sadəcə on-on beş iri ixracatçının payına düşməsi, coğrafi ərazilər üzrə də zəif diversifikasiyası, kənd təsərrüfatı ixracatçılarının maliyyə resurslarına əlçatanlığının zəif təminatı,ixracın məhsul qrupları üzrə olduğu kimi, məhsulların qablaşdırma, marketinq, reklam məsələlərinin zəif təşkili, məhsulların istehsal prosesinin beynəlxalq standartlara cavab verməməsi, kənd təsərrüfatı ixracatçılarının maliyyə resurslarına əlçatanlığının zəif təminatı və sairdir.

Kənd təsərrüfatı istehsal sahələrində innovativ infrastrukturun qurulması intensiv inkişafı stimullaşdıracaqdır. Dünya kənd təsərrüfatı bazarının tələblərinə cavab verən məhsul istehsalına nail olmaq üçün bitkiçilik və heyvandarlıqsahəsində biotexnoloji laboratoriyalarda yeni, daha dözümlü sortların, tinglərin və cinslərin yaradılması, istehsalda müasir texnika və texnologiyalardan istifadənin genişləndirilməsi kimi tədbirlər məhsuldarlığı artıracaqdır. Həmçinin innovativ istehsal, anbar və daşıma vasitələrindən istifadə zaman və şəraitə nəzərən xüsusilə həssas olan kənd təsərrüfatı məhsullarının uzaq məsafələrə daşınması və saxlanması mümkün hala gələcəkdir.

“Azərbaycanın kənd təsərrüfatı məhsulları üçün potensial ixrac satış zonasının müəyyən edilməsi” mövzusunda aparılmış tədqiqat potensial satış zonalarının müəyyən edilməsi və ixrac imkanlarının artırılması üçün aşağıdakı təklifləri irəli sürməyə imkan verir:

1. İxrac üçün yetərli məhsul istehsalın nail olmaq üçün beynəlxalq təcrübənin öyrənilməsi və ölkəmizdə tətbiqi
2. Heyvandarlığın ixrac potensialının artırılması üçün ferma modellərinin yaradılması
3. İxracda Rusiya bazarlarından asılılığın minimuma endirilməsi
4. Dünya bazarının tələblərinə cavab verən məhsul istehsalına nail olunması

5. Spesifik xüsusiyyətlərilə seçilən kənd təsərrüfatı məhsulları üzrə “made in Azerbaijan” modelinin yaradılması

6. Orqanik kənd təsərrüfatı məhsulları istehsalının genişləndirilməsi və ixrac imkanlarının artırılması

Aqrar sənaye məhsullarının ixrac potensialının artırılmasının digər yolu bu sahəyə biznes strukturlarının cəlb edilməsidir. Son illərdə kənd təsərrüfatı məhsullarının istehsalında və ixracında artım müşahidə edilsə də, bu göstəricilər yalnız dövlət hesabına yetişdirilmiş bitkiçilik və heyvandarlıq məhsulları sayəsində olmuşdur. Sahibkarlıq subyektlərinin kənd təsərrüfatı sahələrində aktiv istehsal münasibətlərinə cəlb edilməsi həm aqrar sənayenin inovasiyalaşmasını sürətləndirəcək, həm ixracatçıların sayını artıracaq, həm də rəqabətədavamlı məhsul istehsalını stimullaşdıracaqdır.

# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

## Azərbaycan dilində


1. "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi" (6 dekabr 2016), 177 səh.;
2. "Azərbaycan Respublikasında logistika və ticarətin inkişafına dair Strateji Yol Xəritəsi" (6 dekabr 2016), 67 səh.;
3. Abbasov V. (2017). Aqrar iqtisadiyyat. Bakı, "Ecoprint" nəşriyyatı, 468 səh.
4. Azərbaycan Respublikasının Xarici Ticarətinin Gömrük Statistikası, Hesabat dövrü - 01.01.2019- 31.05.2019, AR DGK Texnoloji İnnovasiyalar və Statistika Baş İdarəsi, 32 səh.;
5. Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi, İxrac icmalı: noyabr 2020, Bakı, 25 səh.;
6. Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi, Azərbaycan İqtisadi İslahatlar İcmalı: avqust 2017, Bakı, 17 səh.;
7. Azərbaycan Respublikası Kənd Təsərrüfat Nazirliyi, İllik Hesabat (2020), Bakı, 20 səh.;
8. Azərbaycan Respublikası Statistika Komitəsi, Azərbaycanda Nəqliyyat Statistik Məcmuə (2020), Bakı, 86 səh.;
9. Abasov İ. D. (2013). Azərbaycanın və dünya ölkələrinin kənd təsərrüfatı, Bakı, Şərq-Qərb nəşriyyatı, 589 səh.;
10. Aksoy U., Boz İ., Eynalov H., Quliyev Y., (2018). Azərbaycanda Orqanik Kənd Təsərrüfati: Hazırkı Durum və Gələcək İnkişaf Potensialı, Bakı, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı, 110 səh.;
11. Əmrahova Z. (2016). Aqrar iqtisadiyyat. Bakı, MA Services, 68 səh.;
12. İbrahimov İ. (2016). Aqrar sahənin iqtisadiyyatı. Bakı, dərslik, 656 səh.;
13. İmanzadə R. (2019). Azərbaycanda logistika sektoru və problemləri. Bakı, Azərbaycan Dövlət İqtisad Universiteti, 70 səh.;

14. İsmayılov F. (2015). Azərbaycan Respublikasinda Aqrar Sektorun Davamli İnkişafinin Hüquqi Təminatinin Təkmilləşdirilməsi Məsələləri. Bakı, Azərbaycan Dövlət İqtisad Universiteti, 124 səh.;

15. Qasımova E. (2018). Kənd təsərrüfatı sahələrinin kommersiya bankları tərəfindən kreditləşdirilməsi mexanizminin təkmilləşdirilməsi, Bakı, Azərbaycan Dövlət İqtisad Universiteti, 109 səh.;

16. Quliyev E. (2015). Aqrar İqtisadiyyat, Bakı, Kooperasiya Nəşriyyatı, 320 səh.;

17. Məmmədova İ. (2014). Regionlarda Aqrar Sahədə Məhsuldar Qüvvələrin Yerləşdirilməsi Və İnkişafinin İqtisadi Problemləri, Gəncə, Azərbaycan Dövlət Aqrar Universiteti, 170 səh.;

18. Salahlı N. (2018). Azərbaycan iqtisadiyyatında qeyri-neft sektorunun inkişafı: Kənd Təsərrüfatı, Azərbaycan Dövlət İqtisad Universiteti, Bakı, 56 səh.;

**Türk dilində**

1. Abbasova N. (2019). Modern İpek Yolu Projesinin Türkiye Azerbaycan İhracat Pazarlamasına Etkileri, Isparta, Süleyman Demirel Üniversitesi, 116 s.;

**İngilis dilində**

1. Siemen van Berkum (2017). "Market and competitiveness analysis of the Azerbaijan agricultural sector: an overview", Wageningen, Wageningen Economic Research Press, 33 p.;

**İnternet resursları**

1. https://oec.world/en/profile/country/aze/, 2019
2. http://www.azpromo.az/export/get-ready-for-export#tab-block-346

(Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu rəsmi saytı) 2020

3. https://customs.gov.az/modules/pdf/pdffolder/84/FILE_3D204C-EEAFFD-161D25-4E1991-083D16-3F7456.pdf , 2019

4. http://milliarxiv.gov.az/az/bir-pencere-prinsipi ,2019

5. https://bakuresearchinstitute.org/az/analysis-of-main-problems-facing-azerbaijans-non-oil-exports/ (Bakı Araşdırmalar İnstitutunun rəsmi saytı), 2018

6. https://www.iqtisadiislahat.org/store//media/documents/ixrac_icmali/2020/11_ExportReview-2020

7. https://www.worldbank.org/en/search?q=azerbaijan+agro&currentTab=1, 2018

8. https://iqtisadiislahat.org/news/azexport_portalinin_teqdim_etdiyi_serbest_satis_sertifikati_sahibkarlara_yeni_ixrac_imkanlari_qazandirib-651 , 2019

9. https://www.agro.gov.az/uploads/documents/pages/2019

10. https://agro.gov.az/az/nazirlik/aciq-melumatlar, 2020

11. https://atm.gov.az/az/search/?key=ixrac (Azərbaycan Kənd Təsərrüfatı Nazirliyinin Aqrar Tədqiqatlar Mərkəzinin rəsmi saytı), 2020

12. https://economy.gov.az/article/nazir-shahin-mustafayev-azerbaycanin-artan-potensiali-istehsalin-ve-ixracin-genishlendirilmesine-boyuk-imkanlar-achir/30334, 2019

13. https://tradingeconomics.com/azerbaijan/balance-of-trade, 2020

14. https://tradingeconomics.com/azerbaijan/exports, 2020

15. https://www.agro.gov.az/az/search?q=2020

16. http://akia.gov.az/az/media, 2020

17. http://axa.gov.az/agentlik/haqqimizda, 2020

18. https://smb.gov.az/storage/documents/%C4%B0xrac%20BUKLET.pdf, 2019

19. https://www.agro.gov.az/az/news/cari-ilin-8-ayinda-findiq-ixraci-oeten-ilin-eyni-doevrue-ile-mueqayisede-89-9-faiz-artib, 2019

20. https://president.az/articles/23369, 2017

# ƏLAVƏLƏR

**Əlavə 1.**

**Cədvəl 4. Növlər üzrə yük daşınması, min tonla**

| Yüklərin adı | 2017 | | | 2018 | | | 2019 | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | avto-mobil | dəmir | dəniz | avtomobil | dəmir | dəniz | Avto-mobil | dəmir | dəniz |
| Kənd təsərrüfatı məhsulları, meşə təsərrüfatı və ov məhsulları, balıq və balıq məhsulları, diri heyvan və quşlar | 13617 | 923 | 12 | 14039 | 808 | 17,8 | 4601 | 2259 | 508,6 |
| Qida məhsulları, içki və tütün yükləri | 6539 | 203 | 35 | 6742 | 078 | 49,9 | 7011 | 1232 | 621,5 |
| Toxuculuq sənayesi məhsulları, dəri və dəridən hazırlanmış məmulatlar | 253,5 | 1,5 | 11,5 | 261,2 | 3,6 | 7,0 | 71,6 | 18,2 | 13,1 |
| Ağac və ağacdan hazırlanmış məmulatlar | 4941 | 012 | 2,4 | 5093 | 1130 | 8,6 | 297 | 1216 | 27,7 |

**Mənbə:** “Azərbaycanda nəqliyyat” Statistik məcmuə, Bakı -2020.

## Cədvəllərin siyahısı

**Cədvəl 1:** 2019-ci il üçün Azərbaycanın 10 əsas ixrac məhsulu ..................................................... 29
**Cədvəl 2:** 2020-ci ilin ilk on bir ayı üzrə əsas ixrac məhsulları, min ABŞ dolları ............................ 29
**Cədvəl 3:** 2019-cu ildə mühüm növ kənd təsərrüfatı məhsullarının ixracı....................................... 31
**Cədvəl 4:** 2019-cu ildə ixrac edilən malların daşınma vasitələri və daşınmanın həcmi .................... 36
**Cədvəl 5:** 2020-ci ilin yanvar-oktyabr aylarında qeyri-neft sektoru üzrə qeyri-dövlət ixracatçı subyektlərin reytinqi (Ötən ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə) ...................... 48

## Şəkillərin siyahısı

**Şəkil 1:** 2016-2020-ci illər üçün idxal və ixracın artım dinamikası................................................... 27
**Şəkil 2:** 2020-ci ilin yanvar-oktyabr aylarında qeyri-neft sektoru üzrə 5 əsas ixrac ölkəsi (2019-cu ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)......................................................................... 40

## Qrafiklərin siyahısı

**Qrafik 1:** Xarici ticarət dövriyyəsinin dinamikası........................................................................... 28
**Qrafik 2:** 2019-cu ildə MDB ölkələrinə ixrac, faizlərlə.................................................................... 38